# Regionda güc balansının dəyişməsi


SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№27 (3225) 16 Avqust / 2022-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qәpik


**ANA XƏBƏR**



## Dələduzluqla üzləşən sahibkar şok faktları açıqladı

# Ermənilərin Azərbaycana qarşı növbəti təxribatı



## Laçında evlərin yandırılmasının arxasında hansı qüvvələr dayanır?

2

**Siyasət**

## "Paşinyan Azərbaycanla qarşıdurmaya gedərsə, hakimiyyətdə qalmayacaq"



Zaur Məmmədov: "Qarabağdan erməni hərbi birləşmələrinin çıxarılması prosesi ya könüllü şəkildə, ya da antiterror əməliyyatının nəticəsində baş tutacaq"

8-9

**Ölkə**

## Prezidentin əmisi oğlunun əmlaklarını kimlər və necə ələ keçirib?



Böyükağa Abdullayev: "İşin içində olan və İlham Məmmədova qarşı amansız mübarizə aparan bir şəxs olaraq deyirəm..."

7

**Sosial**

## Şəmkirdə dərəbəylik

### Düyərli kəndində örüş yerləri necə satılıb?

Şəmkir rayonunun Düyərli kəndində Bələdiyyə sədrinin qeyri-qanuni əməlləri və kənd sakini Elçin Məmmədovun sahibkar Yusif Şəmmədovun obyektinin yolunun kəsməsi haqqında "Hürriyyət" qəzetinin 21 iyun və 5 iyul 2022-ci il tarixli saylatın yazılar dərc olunmuşdur. Araşdırmamız nəticəsində Bələdiyyə sədri Samir İsgəndərovun qeyri-qanuni əməlləri haqqında yeni faktlar ortaya çıxmışdır. Məlumatlı şəxslərin bilgisinə görə, Düyərli Bələdiyyəsi Maliyyə şöbəsinin sabiq müdiri Nazim Məlikovla əlbir olub, Düyərli kəndinin ərazisində yerləşən örüş yerlərini, Düyərli kənd sakini Elçin Məhəmməd oğluna və kəndin 150 ha örüş yerini 200 min manata Dəllər Cəyir kənd sakini Tahir adlı şəxsə satıblar...

10

**Toplum**

## Məktəbli çantası altında əzilən valideynlər

### Nazirin açıqlamasını eşitməzdən gələn əksər paytaxt məktəblərində yeni formaların alınması tələbləri eşidilir...

Bu gündən etibarən Azərbaycanda yeni tədris ili üçün məktəbli formalarının satışına başlanılır. Və dünən artıq satışa təqdim edilən formaların qiyməti ilə bağlı ilkin açıqlamalar verilib. Məktəbli formalarının qiyməti və satış tarixi barədə mətbuata "Bakı Tikiş Evi" (BTE) ASC-nin satış üzrə müdiri Etibar Əzimov məlumat verib. O deyib ki, uzunqol və qısaqol köynəklərin qiyməti təxminən 14 manatdır, şalvar və ətək isə 25 manata alıcılara təqdim olunacaq...

11

**GÜNÜN NƏBZİ**

**Mövqe**

## "İmam Hüseynin din uğrunda özünü qurban verməsi faktı doğru deyil"



Rafiq Əliyev: "O, Kufəyə ona görə gəlirdi ki, orada vali olsun, yəni mübarizə hakimiyyət mübarizəsi idi, din yox"

13

**Baxış**

## Bəlkə Ramiz Mehdiyevlə məsləhətləşəsiniz...

İdeoloji sahədə böyük və köklü islahatların keçirilməsi, aparatda təmizləmə əməliyyatının axıra qədər aparılması vacibdir

4

**Hüquq**

## Rusiyanın Azərbaycana nota verməsinə səbəb olan dələduzluq əməli

Binəqədi rayon prokuroru Fuad Məmmədovun dövləti nüfuzdan salan əməlləri nə üçün və kimlər tərəfindən ört-basdır edilir?

12

**Sosial**

## "İcra başçısı deyir ki, sən inqilabçısan..."

Məhbub Zülfüqarov: "İcra başçısı bu çikayətlərə görə Dost Mərkəzindən süpürgəçilik işindən aldığım 250 manatı 2 aydır kəsdirib"

10

**Müsahibə**

## "Validyenlərim məni ağ xalatda görmək istəyirdilər"

Aynur İsgəndərli: "Dedim, istəmirsinizsə mən özümə qəsd edim, məni bu sənətdən ayırmayın"

11

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№27 (3225) 16 Avqust / 2022-ci il Həftədə 1 dəfə çıxır Qiymətı: 60 qəpik


# İranda qadınlar evlənmək üçün bakirəlik şəhadətnaməsi almağa məcbur edilir

## "Bu, şəxsi həyatın toxunulmazlığının pozulması və alçaldıcı bir rəftardır"

**İranda nikahdan əvvəl bakirəliyə hələ də xüsusi əhəmiyyət verilir. Bəziləri evlənməkdən əvvəl hətta bakirəlik şəhadətnaməsini tələb edir. Lakin ölkədə buna qarşı olanların sayı daha da artmaqdadır Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu praktikanı insan hüquqlarına zidd hesab edir.**

”Səninlə evlənməyim üçün mənimlə oyun oynadın, bakirə deyilsən. Əgər həqiqəti bilən olsaydı, səninlə heç kim evlənməzdi”, Məryəm ilk dəfə əri ilə birlikdə olduqdan sonra həyat yoldaşı ona bunları söyləmişdi.

Məryəm cinsi əlaqədən sonra qanaxmasının olmamasına baxmayaraq, daha əvvəl heç kimlə cinsi əlaqədə olmadığını bildirib. Amma əri ona inanmayıb və bakirəlik şəhadətnaməsi istəyib.

İranda bakirəlik şəhadətnaməsi tələbi qeyri-adi deyil. Bir çox qadın nişanlandıqdan sonra həkimə gedib bu sertifikatı istəyir.

Lakin ÜST bakirəlik testinin elmi əsası olmadığını deyir.

Məryəmin aldığı sertifikatda onun ”qızlıq pərdəsi”nin (himen) ”elastik” olduğu qeyd edilib. Bu da o demək idi ki, cinsi əlaqədən sonra qanaxma olmaya bilər.

”Qürurum incidi. Yanlış bir hərəkət etmədim, amma ərim məni alçaltdı. Artıq dözə bilmirdim, həblə intihara cəhd etdim” - deyə Məryəm danışır.

Lakin o, vaxtında xəstəxanaya çatdırıldığı üçün sağ qaldı.

”O pis günləri heç unutmayacağam, 20 kiloqram arıqladım”, - Məryəm deyir.

### Tətbiqə son vermək çağırışı

Məryəmin hekayəsi İrandakı bir çox qadının vəziyyətini əks etdirir. Qadınların evlilik öncəsi bakirəliyi mühafizəkarlıqla bağlı köklü bir keçmişə sahibdir.

Ancaq son dövrlərdə bir dəyişiklik başlayıb. Ölkə miqyasında qadınlar və kişilər bakirəlik testinə son qoyulması üçün təbliğat aparırlar. Keçən ilin noyabr ayında internetdə yayılan petisiyaya bir ayda 25 min nəfərin dəstəyini qazanıb. Bu ilk dəfə idi ki, bu qədər insan açıq şəkildə bakirəlik testinə qarşı çıxıb. ”Bu, şəxsi həyatın toxunulmazlığının pozulması və alçaldıcı bir rəftardır” - Nida deyir.

O, Tehranda 17 yaşlı bir tələbə ikən sevgilisi ilə cinsi əlaqədə olmuşdu. ”Panikada idim, ailəm eşidərsə, nə olacaq deyə düşünürdüm”. Buna görə də o, ”qızlıq pərdəsinin



bərpası” əməliyyatını etdirməyə qərar verib. Texniki cəhətdən bu əməliyyat qeyri-qanuni deyil, lakin ciddi sosial nəticələrə səbəb ola biləcəyi üçün xəstəxanalar bu əməliyyatı etmək istəmirlər.

Nida bunu gizli şəkildə baha qiymətə edəcək özəl klinika tapıb. ”Bütün yığdığım pulu buna xərclədim. Kompüterimi, telefonumu, qızıl əşyalarımı satdım”.

Hər hansı bir yanlışlıq olacağı təqdirdə, bütün məsuliyyəti öz üzərinə götürdüyünü göstərən sənədi imzalayıb.

Bir tibb bacısı tərəfindən həyata keçirilən əməliyyat 40 dəqiqə davam edib, amma Nidanın sağalması bir neçə həftə çəkib.

”Çox ağrım var idi, ayaqlarımı tərpədə bilmirdim”, o, deyir.

### Qadın və kişi

Hadisəni ailəsindən gizlətdiyi üçün çox yalnız qaldığını, amma onların xəbər tutmasından qorxduğu üçün ağrıya dözməli olduğunu söyləyir.

Amma onun çəkdiyi əzablar boşa çıxmış, sonradan onunla evlənmək istəyən sevgilisi ilə yaxınlıq vaxtı qanaxması olmamışdı.

”Məni onunla evlənmək üçün oyun qurmaqda günahlandırdı. Yalançı olduğumu deyib məni tərk etdi”.

### Ailə təzyiqi

ÜST-nin qeyri-etik və elmi əsası olmadığına görə qarşı çıxdığı bakirəlik testi hələ də bir çox ölkədə tətbiq edilir. Bunlar arasında Türkiyə, İraq və İndoneziya da var.

İrandakı tibb qurumu iddia edir ki, bakirəlik testi yalnız məhkəmə prosesləri və təcavüz ittihamları kimi xüsusi hallarla əlaqədar aparılır. Bununla belə, əksər bakirəlik sertifikatları hələ də evlənməyi planlaşdıran cütlüklər tərəfindən tələb olunur. Bunun üçün onlar özəl klinikalara yönəlirlər.

Test və sertifikatlaşdırma prosesi ginekoloq və ya tibb bacısı tərəfindən həyata keçirilir. Şəhadətnamədə qadının adı və digər şəxsi məlumatları əks olunur.

Daha mühafizəkar ailələrdə sertifikatda iki şahidin imzası da olur və bu şahidlər adətən analardır. İllərdir bakirəlik sertifikatı verən Dr. Faribə bunun alçaldıcı bir təcrübə olduğunu etiraf edir, amma əslində, bir çox qadına kömək etdiyinə inanır: ”Ailələrindən elə təzyiq görürlər ki, bəzən cütlüklər üçün yalan danışıram. Əgər bir yerdə olublarsa və ailə quracaqlarsa, ailələrinin qarşısında qadının bakirə olduğunu deyirəm”.

### Kişi gözü ilə

Amma bir çox kişi üçün evlənəcəkləri qadının bakirə olması çox önəmlidir.

Şiraz şəhərində yaşayan 34 yaşlı elektrik Əlinin dediyinə görə, ”Qız evlənmədən əvvəl bakirəliyini itiribsə, o, etibarlı deyil. Ərini başqa bir kişi üçün tərk edə bilər”.

”Özü 10 qızla cinsi əlaqədə olub. Deyir ki, özümü saxlaya bilmədim”.

İran cəmiyyətində ikili standartlar olduğunu qəbul edir, amma ənənələrə qarşı çıxmağı doğru hesab etmir:

”Sosial normalara görə, kişilər qadınlardan daha müstəqildir”. Əlinin fikirlərini bir çoxları, xüsusən də İranın kənd və mühafizəkar bölgələrində bölüşürlər. Bakirəliyin yoxlanılmasına qarşı təbliğat və nümayişlərə baxmayaraq, çoxları məsələnin İran mədəniyyətində dərin köklərə malik olduğunu nəzərə alaraq, hökumətin tezliklə hərtərəfli qadağa qoyacağını gözləmir.

### Gələcəyə ümid

İntihara cəhd etməsi və təcavüzkar əri ilə yaşamasından 4 il keçdikdən sonra Məryəm məhkəməyə müraciət edərək boşandı.

”Kişilərə yenidən güvənməkdə çətinlik çəkəcəm. Yaxın bir zamanda evlənəcəyimi düşünmürəm”. On minlərlə digər qadınlar kimi o da bakirəlik testinə qarşı aparılan kampaniyaya imza atdı.

Yaxın gələcəkdə bir dəyişiklik gözləməsə də, İranda qadınların bir gün daha bərabər olacağına inanır: ”Bir gün olacaq. Ümid edirəm ki, heç bir qız mənim başıma gələnləri yaşamaz”.



## Əyləncə səhifəsi

# Bu insanların beyninə çip yerləşdiriləcək...

İlon Mask bu haqda Çinin "China Cyberspace" jurnalı üçün məqaləsində yazıb



İnsan beyninə çiplərin yerləşdirilməsi əlilliyi olan insanlara kömək edə bilər. Bu barədə ”Tesla” və ”Neuralink”in yaradıcısı İlon Mask Çinin ”China Cyberspace” jurnalı üçün məqaləsində yazıb. Mask, ”Neuralink-”in sinir çiplərinin indi hər bir halda ciddi şəkildə yaralanan insanlara kömək etdiyini söyləyib. Nümunə olaraq o, motosikletlə qəzaya uğrayan, indi təkbaşına yemək yeyə bilməyən 25 yaşlı gəncdən danışıb. İş adamı izah edib ki, bu halda çip travmatik beyin zədələrini müalicə etmək və ya yüngülləşdirmək üçün proqramlaşdırılacaq.

Yeni texnologiya həm də onurğası zədələnmiş insanlarda ətrafların funksiyasını bərpa etməyə kömək edə bilər. Bundan əlavə, psixi pozğunluqların müalicəsində istifadə edilə bilər. Çiplər həmçinin iflic olan insanlara kompüter və smartfonlarla işləmək üçün beyinlərindən istifadə etməyə kömək edəcək.

”Uzun müddətdə beyin-kompüter interfeysinin inkişafı ilə bu texnologiya xarici dünya ilə insan beyni arasında əlaqə kanallarını genişləndirəcək, beynin digər sahələrinə və yeni sinir məlumatlarına çıxış əldə edəcək”, - Mask yazıb. Biznesmen hesab edib ki, onun şirkətlərinin texnologiyaları bəşəriyyət üçün daha yaxşı gələcəyə nail olmağa kömək edəcək.

# Zorlandıqdan sonra dünyanı gəzir




Altıncı ildir dünya səyahətini davam etdirən rusiyalı səyyah Yelena Tereşonkova Kanadada təhsil alarkən başına gələn zorlama hadisəsindən danışıb. Milli.Az bildirir ki, o, hekayəsini lenta.ru ilə bölüşüb. Qız Kanadada uzun müddət qalmadığını etiraf edib - başına xoşagəlməz hadisə gəlib, Tereşonkovanın həyata yanaşmasını çox dəyişdirən dünya səyahətinə qərar verməyə imkan verib. Beləliklə, bir gün, dostları ilə bir barda görüşdükdən sonra, rusiyalı evə tək piyada qayıtmalı olub. Bir kişi onun ardınca gedib, lakin səyyah dostlarının Kanadanın mütləq təhlükəsizliyi ilə bağlı dediklərini xatırlayaraq pis düşüncələrinə qapılmayıb.

”O, üzümə vurdu və sonra məni ən yaxın küncə sürükləyərək bir saat ərzində istədiyini etdi. Sonda məni boğmağa çalışdı - ən son saniyədə, artıq həyatla vidalaşmağa başlayanda, sağ qalsam, mütləq çox səyahət edəcəyimi fikirləşdim”, - deyə qadın danışıb. Travmatik təcrübəyə və məhkəmə çəkişmələrinə baxmayaraq, Tereşonkova ”insan həyatı çox kövrəkdir və hər an bitə bilər” dərsini öyrəndiyini söyləyib. Dünya səyahəti Kubadan başladı - qadın 40-dan çox ölkəni ziyarət edib, Lenin zirvəsinə qalxıb, Kolumbiyanın cəngəlliklərində gecələyib, Pataqoniya ətrafında avtostopla gəzib və hətta evlənib.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**

# Ermənilərin Azərbaycana qarşı növbəti təxribatı

## Laçında evlərin yandırılmasının arxasında hansı qüvvələr dayanır?

**Son günlər ermənilərin Laçından çıxarkən təxribata əl atması geniş səs-küyə səbəb olub. Belə ki, onlar evləri yandıraraq barbar, vəhşi toplum olduqlarını bir daha nümayiş etdiriblər. Qeyd edək ki, evlərini yandırmaq istəyən ermənilərə ölkə rəhbərliyi tərəfindən öncədən xəbərdarlıq edilib. Bildirilib ki, yaşadıqları evləri yandıranlara dövlət tərəfindən nəzərdə tutulan kompensasiya verilməyəcək.**

Millət vəkili Aydın Mirzəzadə "Hürriyyət" qəzetinə açıqlamasında bildirib ki, bu təxribatın arxasında müəyyən qüvvələr dayanır: **"Mümkündür ki, bunun arxasında xahişlər və yaxud da elə Ermənistanın özündə müəyyən qüvvələr dayanır. Ermənilər, evlərini yandıran erməni ailələrinə sertifikatda göstərilən vəsaitdən çoxunu vəd etdiklərinə görə, onlar evləri yandırmağa cəhd edirlər. Bu, əslində onların vəhşiliyinin, sivilizasiyadan uzaqlığının göstəricisidir. Bununla onlar, Azərbaycana psixoloji təsir göstərməyə, Azərbaycan xalqında qorxu, inamsızlıq yaratmağa çalışırlar. Ancaq etdiklərinin heç bir faydası yoxdur".**

A.Mirəzzadə hesab edir ki, ermənilərin Azərbaycan ərazilərində evləri yandırması aşkar təxribat elementidir: "Erməni millətcikləri növbəti dəfə Azərbaycana qarşı təxribat törətməyə cəhd edirlər. İl yarım bundan əvvəl imzalanmış üçtərəfli bəyannaməyə əsasən, Laçın yoluna alternativ yol çəkildikdən sonra, Laçın şəhəri və onun ətrafında olan kəndlər Azərbaycanın tam nəzarəti altına keçir. Orada qeyri-qanuni yaşayan ermənilər isə Azərbaycan ərazisini tərk etməlidirlər. Ancaq son dövrlərdə həmin ailələrə Ermənistana qayıdacaqları halda pensiya şəklində konpensasiya verilmək söz verilmişdir. Bununla belə, bəzi erməni ailələri həmin yaşadıqları evləri yandırmağa, özlərinə aid olan barbarlığı və vəhşiliyi nümayiş etdirməyə calışıblar, hətta bununla bağlı sosial şəbəkələrdə videogörüntülər də yayılmışdır.

Çox təəssüf ki, Azərbaycan belə düşüncə mədəniyyətində olan bir toplumla üz-üzədir. Erməni millətindən olanlar 200 il bundan əvvəl qeyri-qanuni şəkildə Azərbaycan torpaqlarına köçürülürdü. 100 il bundan əvvəl Azərbaycan tarixi torpaqlarında Ermənistan Respublikası yaradıldı və həmişə yerli əhaliyə qarşı zorakılıq törətməyə, tariximizi, mədəniyyətimizi, torpağımızı əlimizdən almağa çalışırdılar. Ancaq bütün bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyi olmadığı dövrdə baş verib. Ən yeni tarix sübut etdi ki, dövlət müstəqilliyimiz olduğu şəraitdə, ermənilərin Azərbaycana qarşı iddialari baş tutmur. Bu, baş tutmadıqda isə onlar evləri yandırmağa, özlərindən sonra viran bir yer qoyub getməyə çalışıblar. Mümkündür ki, bunun arxasında xahişlər və yaxud da elə Ermənistanın özündə müəyyən qüvvələr dayanır. Onlar evlərini yandıran erməni ailələrinə sertifikatda göstərilən vəsaitdən cox vəsait vəd etdiklərinə görə, evləri yandırmağa cəhd edirlər. Bu, əslində onların vəhşiliyinin, sivilizasiyadan uzaqlığının göstəricisidir. Bununla onlar, Azərbaycana psixoloji təsir göstərməyə, Azərbaycan xalqında qorxu, inamsızlıq yaratmağa çalışırlar. Ancaq etdiklərinin heç bir faydası yoxdur. Azərbaycan xalqı Prezident, Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində torpaqlarımızın böyük bir hissəsini işğaldan azad etdi. Bir hissə ərazimiz isə müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altındadır. Həmin ərazilər də uzaq olmayan bir dövrdə Azərbaycanın nəzarəti altına keçəcək. Ermənilərin Azərbaycana qarşı etdikləri istənilən təxribata qarşı Azərbaycan artıqlamasıyla cavab verir. Azərbaycana təzyiqi nəticəsində Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazidən çox sayda erməni hərbçiləri həmin ərazini tərk etmişlər. Ermənistanın istənilən təxribatına qarşı Azərbaycanın prinsipial mövqeyi, milli maraqlarımıza uyğun addımları vardır. Ermənilərin bu cür təxribat törətmələri Azərbaycanın öz ərazi bütövlüyünü tam təmin etməyə heç bir halda mane olmayacaqdır.



**Xaricdəki erməni diaspor nümayəndələri isə özləri üçün bir nəticə cıxartmalıdırlar ki, Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Azərbaycan öz dövlət müstəqilliyinin imkanlarından istifadə edərək, milli maraqlarımıza uyğun olaraq ciddi addımlar atır və istənilən təxribata cavab verməək iqtidarındadır. Çox çəkməyəcək ki, Azərbaycan bayrağı Laçında, Zabuxda, Şuşada dalğalanacaq. Və çox çəkməyəcək ki, biz oradan olan keçmiş məcburi köçgünlərimizin öz dədə-baba torpaqlarına qayıtmaqlarının şahidi olacağıq".**

Politoloq İlyas Hüseynov isə "Hürriyyət"ə açıqlamasında bildirdi ki, tərəflər arasında düşmənçiliyi və nifrəti daha da genişləndirmək, inkişaf etdirmək düşmənin əsas məqsədidir.

**"Bu cür cılız addımlar atmaqla, onlar öz məqsədlərinə çatmağı ehtimal edirlər", - deyən İlyas Hüseynov onu da qeyd edib ki, burada kənar güclərin, kənar təsirlərin olması ehtimalları güclənir: "Təbii ki, kənar təsirlər, kənar manеələr regionda daha çox siyasi gərginliyin artırılmasında marağı olan tərəflərdir. Onların müdaxiləsi təbii ki, təhlükəsizliyə və sülhə də böyük zərbə vurur.**

**Azərbaycan vətəndaşlarının öz tarixi torpaqlarına qayıtmasına kimlər əngəl olmağa çalışır?**



Qeyd etmək lazımdır ki, Laçın dəhlizinə alternativ yolun çəkilməsi 2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli birgə bəyanata uyğundur. Digər tərəfdən, bəyanatın 6-ci maddəsində qeyd olunur ki, Laçın şəhərinə daxil olmadan alternativ yol 3 il ərzində inşa ediləcək. Azərbaycan tərəfi cəmi il yarım ərzində dünya standartlarına cavab verən yolu inşa etdi. Hazırda Laçın şəhərinin mərkəzi, xüsusilə Zabux kəndləri də Azərbaycana təhvil verilməlidir. Bu, onu deməyə əsas verir ki, artıq Azərbaycanın göstərdiyi siyasi iradə, qətiyyət və prinsipiallıq özünü əyani şəkildə nümayiş etdirir və bu xüsusda həmin ərazilərdə yerləşən ermənilərin də addımları böyük maraq doğurur. Cəmi il yarım öncə üçtərəfli birgə bəyanat nəticəsində Laçın, Kəlbəcər və Ağdam hərbi siyasi yollarla düşməndən təmizləndi. Həmin dövrdə də ermənilər evlərinə od vurur, ağacları kəsir, mal-qaranı tələf edir və maksimum dərəcədə ziyan vurmağa çalışırdılar. Baxmayaraq ki, həmin evləri azərbaycanlılar min bir əziyyətlə tikmişdilər. Lakin ermənilər onları yandıraraq xüsusi zövq alırdılar. Hazırda isə Ermənistan rəhbərliyi evləri yandırmamaqla bağlı xüsusi göştəriş verib. Göstəriş əsasında qeyd olunur ki, həmin şəxslər Ermənistan tərəfindən konpensasiya almayacaqlar. Bu Azərbaycanın siyasi əzmini və qətiyyətini nümayiş etdirən bir yanaşmadır. Lakin biz bir sıra neqativ halları da görürük. Burada isə kənar güclərin, kənar təsirlərin olması ehtimalları güclənir. Tərəflər arasında düşmənçiliyi və nifrəti daha da genişləndirmək, inkişaf etdirmək onların əsas məqsədidir və bu cür cılız addımlarla öz məqsədlərinə çatmağı ehtimal edirlər.

Lakin Azərbaycan tərəfi "Qisas" antiterror əməliyyatını keçirtməklə nümayiş etdirdi ki, qarşışına qoyduğu bütün məqsədlərə çatmaqda qətiyyətlidir və bundan sonra da prinsipial, ardıcıl addımlar atılacaqdır. Eyni zamanda cənab prezident son çıxışı zamanı həm də Ermənistanın havadarlarına çox ciddi mesajlar verdi. Bu mesajlar ondan ibarətdir ki, heç bir status, müstəqillik, muxtariyyət məsələləri siyasi gündəlikdə yoxdur və bu məsələləri "diriltmək" istəyənlərin də bir nəticəyə müyəssər olmayacağı gün kimi aydındır".

**NƏRMİN**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Regionda güc balansının dəyişməsi

**Rusiya-Türkiyə münasibətlərinin yenidən qurulması və şəkillənməsi nəinki Cənubi Qafqazın və post-sovet məkanının, həm də hər iki dövlətin sərhədlərindən kənara doğru genişlənən bölgəsəl təhlükəsizlik üçün əsas amildir. Bunu artıq hər kəs qəbul edir. Xüsusilə rusiyalı ekspertlər bundan ümidlidirlər. Onların fikrincə, Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında Soçidə 4 saat davam edən görüş regional siyasətdə müəyyənedici hadisə olacaq. Onun ən mühüm nəticəsi, əlbəttə, Moskva ilə Ankara arasında qarşılıqlı faydalı iqtisadi tərəfdaşlıqdır ki, bu da Rusiyanın Qərb sanksiyalarından yan keçərək dünya bazarı ilə qarşılıqlı əlaqədə olmasına kömək edəcək və eyni zamanda Türkiyə iqtisadiyyatı üçün də rentabelli olacaq.**



## Rusiya-Türkiyə-İran "üçbucağında" İran təklənən - "küncə qoyulan" tərəf olmaqdadır

Bir tərəfdən Türkiyə ilə Aİ-ni Gömrük İttifaqı birləşdirir, digər tərəfdən isə Qərbin sanksiyalarının tətbiqindən sonra bu ölkənin maliyyə məkanında xeyli rus pulunun "fırlanması" heç kimə sirr deyil.

Həmin "rus pulları" Qərb texnologiyaları ilə istehsal yaratmaq və bazarlara çıxış, məşğulluğu artırmaq və bütövlükdə iqtisadiyyatı canlandırmaq üçün investisiyalara çevrilə bilsələr, bu, həqiqətən də Ankara üçün "qazan-qazan variantıdır". Bununla belə, proses hələ təzə başlayır.

**Soçidə Putin və Ərdoğan iki ölkə arasında qarşılıqlı hesablaşmalarda dollardan tədricən imtina etmək barədə razılığa gəliblər. Rusiya qazının alışının bir hissəsini Ankara rublla ödəyəcək ki, bu da Rusiya valyutasına "nəfəs aldıracaq". Məlum olduğu kimi, Soçidə keçirilən görüşdə Türkiyənin 5 bankına Moskvanın SWIFT-dən ayrıldıqdan sonra inkişaf etdirdiyi Rusiyanın MIR ödəniş sisteminə qoşulması tapşırılıb.**

Bu sistem ilk növbədə rusiyalı turistlərin Türkiyəyə sərbəst səfər etməsinə şərait yaradır. Bu addımın sayəsində "bəzi ruslar" Qərbin maraqlı baxışlarından gizlənə bilər. "Bloomberg"in hesabatı artıq məxfi nağd əməliyyatların həyata keçirilməkdə olduğunu bildirir. Əslində, Türkiyə Rusiyaya sanksiyaların təsirini yumşaltmaqda kömək edir, eyni zamanda özünün də bu sanksiyalara "ürcah olmaması"na nail olur.

Prezident Ərdoğan bu gunlərdə Rusiya prezidenti ilə danışıqların bütün regiona fayda verəcəyini "üstüörtülü" şəkildə qeyd etdi. Ehtimallara görə, yaxın gələcəkdə Rusiya-Türkiyə "resetinin" özünü göstərəcəyi üç sahə var - Suriya, Qara dəniz və Cənubi Qafqaz.

İlk olaraq Cənubi Qafqazda Türkiyə-Rusiya maraqlarının durumuna baxaq. Rusiyalı politoloq Pvel Klaçkovun fikrincə, Rusiya Cənubi Qafqaz regionunda sabitlikdə maraqlıdır.

"Rusiya ilə Azərbaycan arasında münasibətlər inkişaf edir. Rəhbərlik səviyyəsində anlaşma var, güclü iqtisadi qarşılıqlı əlaqə var, təhlükəsizlik məsələləri ilə bağlı razılaşmalar var. Rusiya üçün sərhədlərin periferiyasında, yəni kənarlarında münaqişələrin olmaması vacibdir", deyə ekspert bildirir.

Onun sözlərinə görə, indi heç bir döyüş və ya eskalasiya Moskvaya sərfəli deyil, bu, ABŞ və onun forpostlarına sərfəlidir ki, İran Çinin forpost funksiyasını yerinə yetirəklə ABŞ-la da "yatağa girməyin əleyhinə deyil". Təki, istədiyini ala bilsin...

**"Məhz onlar (yəni ABŞ-ın forpostları) Rusiyanın öz qüvvələrini səpələməsi üçün bu cür münaqişələri törədə bilərlər. Biz indi sabitlik və sülhdə maraqlıyıq, bu mövqe həm Türkiyəyə, həm də Azərbaycana aiddir", deyə Klaçkov əlavə edib.**

**Ermənistandakı anti-Rusiya əhval-ruhiyyəsindən danışan ekspert bildirib ki, Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi "intihar" xarakteri daşıyır.**

"Onlara təhlükəsizlik zəmanəti verən Rusiya olub. Bu hisslər kənardan da dəstəklənir. Bütün bunlar Ermənistanı çıxılmaz vəziyyətə salır və hətta sahib olduqlarını belə itirirlər. Ona görə də indi orada hər şey çox sarsıntılı şəkil alır. Bəli, Bakı ilə münasibətlərdə də müəyyən nüanslar var, lakin bu məsələlər iki ölkənin siyasi dairələri arasında nizamlı şəkildə həll olunur. Ona görə də bu münasibətlər əlverişli xarakter daşıyır", deyə politoloq yekunlaşdırıb.

Politoloq Türkiyənin də hazırı durumda vəziyyətini şərh edərək bildirir ki, onun Cənubi Qafqazda təsiri artır: "Biz Türkiyənin Cənubi Qafqaz regionunda və bütün dünyada təsirinin artdığını görürük. Lakin bu təsirin İran ambisiyaları və İranın simasında öz təbii rəqibləri var. Indi hər şey çox sürətlə dəyişir. Bəzi problemlər indi çox sürətlə həll olunmağa başlayır. Digər tərəfdən, qeyd etmək lazımdır ki, hazırda Rusiya ilə Türkiyə arasında yaxınlaşma var".

"Rəcəb Tayyib Ərdoğan Türkiyənin böyük miqyasda suverenlik əldə etməsində xeyli payı olmuş çox müdrik siyasətçidir. O, indi Rusiyadan həm iqtisadi, həm də siyasi mənada real mənfəət götürür. Ona görə də onun hərəkətləri Türkiyənin xeyrinədir, hətta Qərb ölkələrinin əksinə olsa da", deyə o əlavə edib.

Qara dənizdə Türkiyə əsas oyunçudur, çünki Montrö Konvensiyasına görə Bosfor və Dardanel boğazlarından hərbi gəmilərin keçməsinə nəzarət edir. Zaqafqaziyaya gəlincə, burada Ankara həm də Moskvanın da Türkiyəyə "həvalə etdiyi" sabitləşdirici rolu oynaya bilər.

Hətta Rusiyanın üzləşdiyi yeni geosiyasi şəraitdə də Türkiyənin Ermənistanla münasibətlərinin normallaşması Azərbaycanla Türkiyə arasında kommunikasiyaların açılmasına kömək edir ki, bu da öz növbəsində Rusiya ilə Türkiyə arasında geniş iqtisadi mənfəət vəd edən birbaşa yol əlaqəsinin açılmasına səbəb ola bilər.

**Suriyaya gəldikdə, mənzərə bir az daha mürəkkəbdir. Bu günlərdə Türkiyə mediası Ərdoğanın Suriya prezidenti Bəşər Əsədlə telefon danışığı etməyi planlaşdırdığını yazıb. Bu günki şərait onların arasında münasibətlərin bərpasına üstünlük verir. Orada məsələ Əsədin Moskva və Tehranın dəstəyi ilə ABŞ-ın rəhbərlik etdiyi rejim dəyişikliyi dəf etdiyi kimi görülsə də, əslində, ABŞ-a Əsədi uzaqlaşdrmaq yox, bu üç ölkəni kələ-kələyə gətirəcək mühiti yaratmaq, Suriyanı bölünmənin astanasına gətirmək üçün əlverişli mühit yaratmaq lazım idi. Təbii ki, üç ölkənin marağının hədəfində olan ölkə məntiqlə bütöv qala bilməz.**

**İkincisi, Suriya Misir, Səudiyyə Ərəbistanı, Bəhreyn və BƏƏ ilə birlikdə ŞƏT-ə üzv olmaq istəyir.**

**Üçüncüsü, MKİ-nin dəstəyi ilə 2016-cı il 15 iyulda hərbi çevriliş cəhdindən sonra Türkiyə-ABŞ münasibətləri çox pisləşdi.**

Bununla belə, proseslərdə əsas hərəkətli amil Suriya-Türkiyə sərhədində ABŞ-ın sponsorluğu altında özlərinə dövlət yaratmağa çalışan silahlı Suriya kürdləri ilə ABŞ arasındakı hərbi-siyasi ittifaqdır.

Ərdoğan ABŞ-ın niyyətlərindən şübhələnir. Rusiya və İran Suriya kürd qrupları ilə təmasdadır, lakin ABŞ-ın Suriyadakı hərbi mövcudluğu davam etdikcə kürdlərlə Dəməşq arasında barışıq irəliləyə bilməz. Demək olar ki, İraqda da vəziyət oxşardır. Bəzi ekspertlərin fikrincə, bu "Qordi düyünü"nü kəsmək üçün istənilən cəhd Ərdoğanla Əsəd arasında barışıqdan başlamalıdır. Bəllidir ki, Ərdoğan-Əsəd telefon diplomatiyası Rusiyanın-Putinin təşəbbüsü idi və təşəbbüs də Soçidə irəli sürülmüşdü. Amma maraqlıdır ki, Suriya-Türkiyə telefon diplomatiyası cəhdi, başqa sözlə qardaş ölkənin XİN naziri Mövlud Çavuşoğlunun Suriyada Şam və müxalifətin anlaşması gərəkdiyini açıqlamasınn ardınca ölkənin müxalif qrupları tərəfindən kontrl edilən şimal-şərq bölgələrində Türkiyəyə qarşı etiraz aksiyalarını alovlandırdı. Belə ki, sosial mediada paylaşılan görüntülərdə küçələrdə Türk bayraqlarının yandırıldığı, Şahinbəy Millət Bağçası qarşısında etiraz aksiyasının təşkil olunduğu, Türk Silahlı Qüvvlərinə aid hərbi nəqliyyat vasitələrinə daş atıldığı görüldü. Hadisələrin əsasən Suriyanın Azez və Cerablusda cərəyan etdiyi bildirilir. Əgər iyulun 19-dakı Tehran sammitindən sonra İranın ikrah doğuran fitnəkarlıqla Ankaranın ayağının altını qazması, canfəşanlıqla Zəngəzur dəhlizinin səbəb olacağı sərhəd dəyişikliyinə "dözməyəcəyi"ni az qala hər gün bəyan etməsi, İraqda özünə bağlı olan İranyönlü hökumət formalaşdırmağa, buranı öz nüfuz dairəsinə daxil etməyə can atmasını, üstəlik Suriyanın sünni əhalisindən təmizlənmiş ərazilərini şiə əhalisi ilə məskunlaşdırmağa calışmasını nəzərə alsaq, Suriyada Türkiyəyə qarşı aqressiv ab-hava yaratmağa qüvvənin piştaxta altından "əl-ələ tutmuş" İran-ABŞ cinahından qaynaqlanmasının nəzərə çarpdığını deyə bilərik. Əlbəttə ki, buraya Suriyadakı terrorçu qrupların və müxalifətçi qüvvələrin içinə sızmağa nail olmuş İran agentura şəbəkəsi mənsublarının varlığını da qeyd etməliyik.

Burada haşiyə çıxaraq bir nüansı qeyd etmək lazımdır ki, Çavuşoğlunun Suriya müxalifətinə çağırışı hansı cinahın Türkiyənin irəli sürəcəyi təşəbbüsə qarşı cıxacağını aşkarlamaq üçün nəbz yoxlaması kimi də qəbul etmək olar.

Aydındır ki, başı Ukraynada qeylü-qala qarışan və ayağı bataqlığa ilişən Rusiyanın Türkiyənin qarısına alternativ rəqabət versiyaları "diyirlədəcək" halda deyil. Məsələn, buna Türkiyənin Krım tatarlarına uzunmüddətli yaşayş izni verməsini göstərə bilərik. Bu o deməkdir ki, Türkiyə məqamı yetişəndə hansısa formada məlum formatın üzərindən Krım məsələsində "sözünü deyəcək". Böyük ehtimalla bu məsələdə də Moskva ilə razılaşma var. Çünki Moskva tərəfindən də maraqlı cəhd müşahidə olunur.

**Belə ki, rus mediasındakı xəbərlərə görə, Rusiya Abxaziya iqtisadiyyatına dəstəyin növbəti pilləsinə keçib. Bu barədə "Sputnik Abxazia"ya Rusiya Federasiyasının iqtisadi inkişaf nazirinin müavini Dmitri Volvaç bildirib. Yeni formata görə, Rusiya Abxaziya iqtisadiyyatına birbaşa ünvanlı dəstəkdən iqtisadi yardım əlaqələrinin qurulmasına keçməyə qərar verdi. Bu həm də iqtisadi tellər üzərindən Abxaziyanın Rusiyaya bağlanması anlamına gələ bilər. Belə görünür ki, Rusiya ilə Türkiyə arasında geosiyasi rəqabətə baxmayaraq anlaşmalı nüfuz dairəsi bölgüsü baş verə bilir. Hətta Rusiya-Türkiyə əməkdaşlığı İranın maraqlarına cavab verməyən Zəngəzur dəhlizinin Terhanın var-gücü ilə müqavimətinin əksinə Moskva tərəfindən dəstəklənməsi ilə də sonuclanmaqdadır. Rusiya-Türkiyə-İran "üçbucağında" İran təklənən-"küncə qoyulan" tərəf olmaqdadır. Elə onu qeyzləndirən də budur.**

**Ülviyyə ŞÜKÜROVA**

# Bəlkə Ramiz Mehdiyevlə məsləhətləşəsiniz...

**Bu son qərinədə Azərbaycanın elə məmuru yoxdur ki, vəziyyətdən sui-istifadə edib sərvət qamarlamasın. Üzdə olanlar orta əsr əmirlərinin, valilərin, xanların yuxularına belə girmədiyi cah-cəlala sahib olublar. Millətin ehtişamını həyasızcasına talan edənlərin birisi də dar ağacı altına çəkilməyib.**

İşdən çıxarılan, məsuliyyətə cəlb edilən olub, amma birisi axıra qədər cəzasını çəkməyib. İxtioloqların dili ilə desək, köpək balıqları, kasatkalar, nəhəng osminoqlar, kaşalotlar qalıb qıraqda, tora düşüb, məhv olmaq isə başqa balıqların alnına yazılıb.

Sabiq spiker Oqtay Əsədovun, Ziya Məmmədovun cah-cəlallı malikanələri barədə danışmayan yoxdur. Mən hələ digər maqnatların imarətlərindən, villalarından danışmıram.

Onu görürsən ki, hansısa harının məhşər ayağına çəkilməsi xəbəri çıxır və hətta əmlakının siyahısı da çap olunur. Bu da məkrli oyundur, əvvəla biz hələ indiyə kimi bir soyğunçunun axıra qədər həbsdə oturduğunu görməmişik. Siyahısı aşkarlanan mənzillər, torpaq sahələri barədə geniş, ətraflı danışan tapılmır. Hələ indiyə qədər heç kim eşitməyib ki, bu əbləhlərin aşkarlanmış mənzil və bağ evlərindən biri şəhid ailəsinə verilsin. Məhkəməsi gedən Səlim Müslümovun altı mənzili barədə danışılır. Elmira Axundovaya mənsub olan əmlakın siyahısı da "Yeni Musavat" qəzetində çap olunmuşdu, nə az, nə çox ona qədər bina və mənzil. Biri müsadirə edildi? Yox! Kimin cürəti çatar özünü "Heydər Əliyevin bioqrafı" adlandıran şəxsə toxunsun?

**...Telekanallrda hamının gözlərini yaşardan, hamını riqqətə gətirən kliplər göstərilir. Musiqiçilərimiz, ifaçılarımız əllərindən gələni edirlər. (Mən artıq hamıda ikrah hissi oyadan yalançı "Vokalistlərdən", telekanalı ucuz balaqana döndərən fırıldaqçılardan danışmıram). Bəzilərinin dərdi ovunur, azca da olsa təsəlli tapır. Az qala hər gün qazilərə, veteranlara mənzillərin, maşınların verildiyini eşidirik. Mömünlər demişkən, buna da şükür!**

**...Rəhmətlik Sabirin təbirincə desək, çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə olur, ayranı ayranlıq olur. Kim deyə bilərdi ki, məchul "xozeyindən", sənə icazə verilir, sən yaz, qələm əhlini vahiməyə sal, millətin yetmiş iki tirə edilməsinə səy göstər, görək ətrafına kimlər yığışır - əmrini illər boyu canla-başla yerinə yetirən fitnəkar orden-medala layiq görüləcək?**

**... Şuşa hələ düşmən tapdağı altında olanda Bakının tən ortasında bir dəstə fahişə "Mal mənimdir, kimə istəsəm verərəm!" şüarını başları üstünə qaldıranda, "mordaları" teleekranlardan düşməyən Anar ləşkərinin bir üzvünün cınqıqı da çıxmayacaq. Bunlar həmin məxluqlardır ki, Şuşa da siyasi qumara qoyulanda, bütün asari-ətiqəmiz də talan edilib**



İdeoloji sahədə böyük və köklü islahatların keçirilməsi, aparatda təmizləmə əməliyyatının axıra qədər aparılması vacibdir

## Odioz fiqurlar, hamının yaltaq kimi tanıdığı tiplər ideoloji işə yaxın buraxılmamalıdır



Firuz HAŞIMOV

**daşınanda susdular.**

**...İndi yenə də bələlərinin dövranıdır. Teleekranda üfüqdən üfüqə uzanan xarabalıqları görürük. Müzəffər Prezidentimiz hər şeyin bərpa olunacağını deyir. Sonra dəfn mərasimi göstərilir, güllərin, əklillərin sayı hesabı yoxdur, müqəddəs bayraqlarımız dalğalanır, böyük izdiham hüznlə addımlayır, baxırıq, boğazımızı qəhər boğur.**

Gedin, ocağı sönmüş ailənin həyət-bacasına, evinə-eşiyinə də baxın, bir vampir məmurun, lampaslı şalvar geymiş qudurğanın da güzəranına da fikir verin.

Bu qədər yaralananların, şikəst olanların, şəhidlərin arasında bir vəzifə sahibinin övladı da yoxdur. Neçə ilin söhbətidir, analar balalarının məzarlarını qucaqlayıb saç yolanda, Elmira Axundovanın oğlu maşın kolleksiyasını feysbukda göstərib xalqa acıq verirdi.

Ziyalıların, iqtidarın içindən bir kişi tapılmadı ki, irəli çıxıb Elmira Axundovanın arxasında duran Ramiz Mehdiyevi hədəf göstərəydi...

İllər boyu soyğunçuluqla məşğul olan, indi də qorxusuz-hürküsüz, giyena kimi ölkəni didən əksər məmurların hər birinin evinin tərtibatına bəzədilməsinə sərf etdiyi pulun miqdarını bilən var? Axı təkcə malikanənin həyəti, çarhovuzu, saunası, köşkü, bəzək kolları üçün sərf olunan vasaitlə xarabaya döndərilmiş hər hansı bir kənddə heç olmasa bir-iki ev tikmək mümkündür.

...70 il ərzində Azərbaycan idman sahəsində belə uğurlar əldə etməmişdi. 40-50 il bundan əvvəl idman cəmiyyətlərində nələrin baş verdiyini ətraflı yazmışdım. İndi isə göz dəyməsin, idmançılarımızın alqdıqları mükafatları sayıb qurtarmaq olmur. Görünür bu sahəni də şikəst etmək üçün Ramiz Mehdiyev kadrlarının vaxtı çatmayıb.

Əfsanəvi Səttar Bəhlulzadənin bayrağı Allaha şükürlər olsun ki, indi etibarlı əllərdədir. Sakit Məmmədov! Səlib dünyasının sənət adamları onun başına and içirlər, elə qiymətli mükafat qalmayıb ki, bu türk oğlu, azəri balası ona layiq görülməsin.

Bütün varlığımla əminəm ki, o və onun məsləkdaşları Vətən müharibəsi qəhrəmanlarına layiq əsərlər yerə qıyacaqlar. Dəfələrlə yazmışam ki, Polşanın məşhur rəssamı Mateykonun millətin oyanışında, dirçəlməsində oynadığı rolu heç kim oynamayıb. Kimə deyirsən?

Bəzən məni təkrarçılıqda suçlayanlar, axı mən necə dözüm ki, dünənləri Qarabağda bütün muzey sərvətləri məhv olmaq, oğurlanmaq təhlükəsi ilə üzləşəndə hər cürə fəxri adlara, ənamlara layiq görülmüş bizim ədəbiyyat, mədəniyyət dəllalları əllərini ağdan qaraya vurmadılar. İndi isə bütün təntənəli tədbirlərdə irişə-irişə müzəffər Prezidentin yanında yer almağa çalışırlar. Yaxşı deyiblər, utanmasan oynamağa nə var ki?

**...Qədim Romanın məşhur dövlət xadimi Böyük Katonun (er əvvəl 234-149-cu illər) adı bütün tarixçilərə məlumdur. Pun müharibələri illərində Katon siyasi fəaliyyəti ilə ad çıxarmışdı. Harada olursa olsun Katon inadkarlıqla bu sözü təkrar edərdi: "Nə deyirsiniz deyin, amma Karfagen məhv edilməlidir!". Karfagen Şimali Afrikada yerləşən zəngin şəhər-dövlət idi. Bəli, az keçdi, çox keçdi, Karfagen istila olunub məhv edildi, Roma qalib gəldi. İndi nə qədim Roma var, nə Karfagen, amma Katonun vaxtılə inadkarlıqla dediyi sözləri tarix hifz edib. Mən nə Katonam, nə də Karfagenin axırıncı sərkərdəsi Hannibal.**

Amma deyirəm, Azərbaycanın cəzasızlıqdan tam azğınlaşmış, din, iman, vətən qanmayan nuvoriş, yəni, görməmişlər zümrəsi zərərsizləşdirilməlidir. Sonra gec olacaq! Müharibə aparan dövlətdə, böyük məhsuldar ərazilər işğal altına düşən vaxtda milləti çapıb-talamaq əsl maradyorluqdur. Dünyanın bütün ölkələrində maradyorları ya asıblar, ya güllələyiblər. Bizdə isə maradyora ya böyük vəzifə verirlər, ya gətirib parlamentdə oturdurlar, ya da imkan verirlər ki, aradan çıxsın. O da çıxır və sonra da kapitalını işə salaraq düşmən cəbhəsinə keçir.

Azərbaycanın azğın məmurlarına, onların cici-bacılarına ona görə nuvoriş deyirəm ki, bunların heç birində nücəbalıqdan əsər-əlamət yoxdur. Qiblələri, Allahları, Quranları dollardır. Rus dünyasının iftixarı Lev Tolstoy şəcərəli qrafdı, kişinin zəri də vardı, zoru da. Bunu ancaq çox dar çərçivədə tədqiqatçılar bilirlər ki, Tolstoy istər cavan yaşında, istərsə də ahıl vaxtında çox şorgöz alıb. Yatağına çəkdiyi qız-gəlinin sayı-hesabı yoxdur. Amma, 1891-1892-ci illərdə 27 quberniyada dəhşətli acılıq başlayanda "arvadbaz" Tolstoy vəsaiti hesabına Tula, Ryazan quberniyasında 124 yetimxana, 246 xeyriyyə yeməkxanası açır.

Bu da sənin üçün istismarçı sinfin nümayəndəsiş Bizim hansı sərvət, vəzifə sahibimiz yerləyeksan edilmiş kəndlərimizin birində daşı-daş üstə qoyub? Onların bircəciyi indiyə qədər bir dəfə maraqlanıb ki, nəzarətləri altında saxladıqları gəlirli ticarət mərkəzlərində, obyektlərdə qız-gəlinlə necə rəftar edirlər? Onlar neçə saat işləyirlər? Nələrinə lazımdır? Bura Azərbaycandır!

...Deyilənlərə görə bu günlərdə millətin qələm ərbabının qurultayı baş tutacaq və sədr məsələsinə də baxılacaq. Bu mənim vecimə də deyil, çünki on illər boyu Moskva irticasına sədaqətlə qulluq etmiş, xalqın neçə -neçə qeyrətli balasını gedər-gəlməzə göndərmiş, satqınlara vətənpərvər donu geyindirərək, bütün ülvi dəyərləri çirkaba batırmış təşkilata ikrahla baxmışam. Sədr məsələsi nə çətin şey imiş? 50 ilə yaxın vaxt ərzində Azərbaycanın ideoloji mühiti Ramiz Mehdiyevi və onun sadiq nökər-naibinin ixtiyarında deyildimi? Məşvərətə lüzum yoxdur, çağırın, qoy Fatma Abdullazadə kimi "sənət xiridarı", müstəmləkə ədəbiyyatının mədahları Nizami Cəfərov, Flora Xəlilzadə, Elçinə, Anara "canlı klassik" adlarını vermiş Cahangir Məmmədli kimi həşəmətli zatlar cəm olub hamının "boz kardinal" kimi tanıdığı Ramiz Mehdiyevin istirahət etdiyi bağa gedib sədr məsələsi üçün acizanə müraciət etsinlər.

Bəziləri deyə bilər ki, axı bu ağa daha ixtiyar sahibi deyil. Yox, mənim əzizlərim, səhviniz var, Moskva o qədər axmaq deyil ki, illərlə ciddi-cəhdlə yaratdığı şəbəkənin, vəfalı "rezidentlərinin" birdən-birə nüfuzdan düşməsinə razı olsun. Respublikada bu vəziyyəti ki, mən görürəm, deməli, işlər hələ qəlizdir.

İdeoloji sahədə böyük və köklü islahatların keçirilməsi, aparatda təmizləmə əməliyyatının axıra qədər aparılması tələb olunur. Odioz fiqurlar, hamının yaltaq kimi tanıdığı tiplər ideoloji işə yaxın buraxılmamalıdır. Klassik ədəbiyyatdan, gül kimi mədəniyyətimizdən imanında sabitqədəm olan, əməli saleh insanlar danışmalıdır.

...Amma, onu da dəqiq bilirəm ki, nə yazdıqlarıma, nə iradlarıma məhəl qoyan da olmayacaq. İşlər hələ qəlizdir...

***Redaksiyadan:** "Magna Trans" MMC-nin rəhbəri, Əfqanıstan Müharibəsi Veteranı, Qarabağ Müharibəsi iştirakçısı, III qrup müharibə əlili İsmayılov Ağasəf İslam oğlunun sabiq Baş prokuror Zakir Qaralovun himayə etdiyi şəbəkə üzvləri tərəfindən dələduzluğa məruz qaldığı haqda "Hürriyyət"in ötən sayında məlumat vermişdik. İş adamının "Hürriyyət"in redaksiyasına göndərdiyi məktubda baş verənləri ətraflı şəkildə izah edir. Onun qəzetimiz vasitəsilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova ünvanladığı məktubu oxucularımıza təqdim edirik:*


Nazim Rəcəbov

# Dələduzluqla üzləşən sahibkar şok faktları açıqladı

## "Magna Trans" MMC-nin sahibi Ağasəf İsmayılovdan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova müraciət

**Hörmətli prokuror!**

Təsisçisi olduğum "Magna Trans" MMC-nin 2010-2019-cu illər üzrə fəaliyyəti və maliyyə vəziyyəti ilə bağlı MMC-nin direktoru (qanuni təmsilçi) Mirzahid Ağayev, iştirakçılar Bürhan Həmidov və Namiq Hacıyevlə bağlı bir neçə məhkəmələrdə baxılan mülki və kommarsiya işləri üzrə,

**1)** Auditorlar Palatasının sərbəst auditoru Musayev Adıgözəl Maqsud oğlunun tərtib etdiyi 06.10.2021-ci il tarixli "Audit aktı",

**2)** "Müstəqil Ekspertiza Mərkəzi" MMC-nin mütəxəssisləri:, Hüseynov Şükür Rzağa oğlu və Şirinov Yasin Rza oğlunun tərtib etdikləri 19.11.2021-ci il tarixli, 558 saylı "mühasibatlıq rəyi",

**3)** AR ƏN "Məkəmə Ekspertiza Mərkəzi"nin eksperti Məmmədov Zaur Zakir oğlunun tərtib etdiyi 9/91saylı 28.01.2022-ci il tarixli "Ekspert rəyi",

**4)** AR ƏN "Məkəmə Ekspertiza Mərkəzi"nin eksperti Cəfərli Toğrul Hatəm oğlunun tərib etmiş oldu 27.07.2022-ci il tarixli 9/4533 saylı "Ekspert rəyi",

onlar tərəfindən icra edilərkən, hər birindən tələb olunan məlumatların bir qismini bilərəkdən təhrif formada göstərməklə, bilərəkdən yalan məlumatları, saxtalaşdırılmış rəqəmləri, şişirdilmiş göstəriciləri qeyd etmişlər. Bununla da qanunla qorunan mülkiyyət hüquqlarımı kobud surətdə pozmaqla bərabər, mənə xüsusilə külli miqdarda maddi ziyan vurmuş şəxslərin sifarişlərini yerinə yetirərək, öz qulluq mövqelərindən sui-istifadə etməklə özbaşınalıq və vəzifə saxtakarlıqıları edərək, həmin şəxsərin cinayət əməllərini "ört-basdıq" etməyə cəhd etmişlər.

Belə ki, Auditorlar Palatasının sərbəst auditoru Musayev Adıgözəl Maqsud oğlunun "Magna Trans" MMC-nin direktor müavini Xəlilov Ramil Mətləb oğlunun sifarişi ilə tərtib etmiş olduğu 06.10.2021-ci il tarixli "Audit aktı"ndan belə nəticəyə gəlinir ki, guya "Magna Trans" MMC-nin 2010-19-cu illər üzrə maliyyə-mühasibat hesabat sənədləri bütünlüklə auditora təqdim olunmuşdur və auditor guya audit yoxlaması keçirmiş və Adıgözəl Musayev apardığı audit nəticəsində MMC-nin fəaliyyətində heç bir nöqsan açkar etməmişdir.

Məsələ bundadır ki, "Magna Trans" MMC-nin direktoru Mirzahid Ağayev və MMC-nin digər iki təmsilçiləri - Bürhan Həmidovla Namiq Hacıyev təsisçisi olduğum "Magna Trans" MMC-nin əmlakını ələ keçirib, sənədləri saxtalaşdırma yolu ilə satıb, pulları da mənimsədikləri üçün, 2019-cu ildən başlayaraq, 3 ildən artıq bir müddətdir ki, çoxsaylı qanuni tələblərimə baxmayaraq, mənə heç bir sənəd vermir, özləri isə gizlənirlər.

Onların hər üçünün bu və digər qeyri-qanuni, özbaşınalıq hərəkətlərinə görə, iddiama əsasən, Abşeron rayon Məhkəməsi 2(012)-435/2021 saylı 19.02.2021-ci il tarixli qətnaməsi ilə, "Magna Trans" MMC-nin bütün dövrlər üzrə təsərrüffat fəaliyyəti və maliyyə vəziyyəti barədə bütün məlumatların müraciətim əsasında mənə verilməsi vəzifəsi cavabdehlər - Ağayev Mirzahid Mirsahib oğlunun, Həmidov Bürhan Əhməd oğlunun və Hacıyev Namiq Gülosman oğlunun üzərinə qoyulmuşdur.

Qətnamə bu günə qədər icra edilməmiş qalır.

Abşeron rayon Məhkəməsinin 2(012)-435/2021 saylı 19.02.2021-ci il tarixli İcra vədəqəsi müvafiq rayonların İcra şöbələrinin icraatındadır. Hər üç borclu tələbi yerinə yetirməkdən uzun müddətdir ki, yayınırlar. Bürhan Həmidovla, Mirzahid Ağayevin barələrində müfafiq İcra şöbələri tərəfindən axtarış elan edilmişdir.

Belə bir vəziyyət mövcud olduğu halda, sual yaranır ki, əgər MMC-nin bütün hesabat sənədləri varsa, bu tələb olunan maliyyə-mühasibatlıq sənədləri həmin şəxslər, yaxud kimsə tərəfindən sərbəst auditor Adıgözəl Musayevə təqdim olunubsa və o, apardığı audit yoxlaması nəticəsində "Magna Trans" MMC-nin fəaliyyətində heç bir çatışmamazlıq aşkar etməyibsə, bəs onda niyə hər üç cavabdeh şəxs tələb etdiyim hesabat sənədlərini verməmək üçün məhkəmə qarşısında qalırlar, vəkil tuturlar, müxtəlif qurumlardan özlərinə himayədarlar tapıb müdafiə olunmğa cəhd edirlər?! Üstəlik, məhkəmə hakimlərindən çoxsylı əsassız və məntiqsiz şikayətlər edir, auditorlara, ekspertlərə, digər mütəxəssislərə "adam tapıb" saxta sənədlər sifariş edirlər.

"Magna Trans" MMC-nin direktoru Mirzahid Ağayev, iştirakçılar Həmidov Bürhan və Hacıyev Namiq "audit yoxlaması" keçirmək üçün sərbəst auditor Adıgözəl Musayevə təqdim etdikləri 14-15 qovluq sənəd doğru-dürüst olsaydı, dərhal heç olmasa həmin sənədlərin kserosurətlərini, üstəlik də audit yoxlaması aktını gətirib mənə də verər, ta aylarla-illərlə didərgin düşməzdilər.

Bununla yanaşı, külli miqdar məbləğlə ölçülən mənim və dövlət büdcəsinə ödənilməli olan pul vəsaitini talamış hər üç şəxs cinayət məsuliyyətindən qurtulmaq üçün aidiyyəti qurumlarda özlərinə "arxa" axtarır, onlarla sövdələşib cinayət əlaqəsinə girirlər. Və təəssüflər olsun ki, özlərinin bir sıra çirkin niyyətlərini həyata keçirməyə nail ola bilmişlər.

**Göstərdiklərimə rəğmən, nəzərinizə çatdırıram ki:**

*- Auditorlar Palatasının sərbəst auditoru Adıgözəl Musayev tərtib etmiş olduğu 06.10.2021-ci il tarixli "Audit aktı"nda;*

*- "Müstəqil Ekspertiza Mərkəzi" MMC-nin mütəxəssisləri Hüseynov Şükür Rzağa oğlu və Şirinov Yasin Rza oğlu tərtib etdikləri 19.11.2021-ci il trixli 558 saylı "mühasibatlıq rəyi"ndə;*

*- Sumqayıt Kommersiya Məhkəməsinin 09.12.2021-ci il tarixli, 2-2(119)-1543/2021 saylı Qərardadının icrası ilə bağlı, AR ƏN Məhkəmə Ekspertiza Mərkəzinin İqtisad Ekspertizalar Şöbəsinin böyük eksperti Məmmədov Zaur Zakir oğlunun tərtib etdiyi 28 yanvar 2022-ci il tarixli 9/91 nömrəli "Ekspert rəyi"ndə;*

*- Sumqayit Kommersiya Məhkəməsi 2-2(119)-41/2022 №-li 02.06.2022-ci il tarixli Qərardadının icrası ilə bağlı, AR ƏN "Məkəmə Ekspertiza Mərkəzi"nin aparıcı eksperti Cəfərli Toğrul Hatəm oğlunun tərtib etdiyi 27.07.2022-ci il tarixli 9/4533 saylı "Ekspert rəyində, onlar tərəfindən saxtakarlıq etmələri işdə olan bir çox sənədlərlə, ən başlıcası isə, aşağıda göstərdiyim dörd sənədlə sübuta yetirilir:*

**1)** Mənim tərəfimdən 29.06.2012-ci il tarixdə 71000 ABŞ dolları məbləğində pulun "Magna Trans" MMC-nin bank hesabına ödənilməsini təsdiqləyən "PAŞA Bank" ASC-nin 13.09.2020-ci il tarixli "Hesabından çıxarış" sənədinin işdə olması,

**2)** Tərəfimdən 06.07.2012-ci il tarixdə 381436 ABŞ dolları məbləğində pulun "Magna Trans" MMC-nin bank hesabına ödəməsini təsdiqləyən "PAŞA Bank" ASC-nin 13.09.2020-ci il tarixli "Hesabından çıxarış" sənədinin işdə olması,

**3).** "Magna Trans" MMC-yə məxsus olan və sənədləri saxtlaşdırma yolu ilə satılmış 21 ədəd avtobusların alqı-satqı müqavilələrini etibarsız hesab edilməsi və həmin müqavilələr əsasında verilmiş 21 ədəd şəhadətnamənin ləğv edilməsinə dair Sabunçu rayon Məhkəməsinin 19.08.2021-ci il 2(008)-2435/2021 saylı Qətnaməsinin işdə olması,

**4).** AR DİN BDYPİ Qeydiyyat-imtahan İdarəsinin 20.03.2020-ci il tarixli 26875/220 saylı məktubu ilə bununla da qanunla qorunan mülkiyyət hüquqlarımı kobud surətdə pozmaqla bərabər, mənə xüsusilə külli miqdarda maddi ziyan vurulmasında sərbəst auditorun fəal iştirak etmiş olduğu barədə Auditor Palatasının sədri Vahid Novruzova müraciət etmişdim.

Auditorlar Palatasının idarə rəisi Elnur İbrahimovun imzaladığı, 29.07.2022-ci il tarixli, 02-150 saylı məktubla mənə bildirilmişdir ki, "Sərbəst auditor Musayev Adıgözəl Maqsud oğlunun "Magna Trans" MMC-nin 2010-2019-cu illər üzrə gəlirlərinin, xərclərinin, bölüşdürülməmiş mənfəətinin və elan edilmiş dividentlərin müəyyən edilməsinin auditi zamanı, auditor Beynəlxalq Audit Standartlarının tələblərinə tam əməl etməmişdir". Məktubda göstərilən "auditor Beynəlxalq Audit Standartlarının tələblərinə tam əməl etməməsi"nə aydınlıq gətirməklə geniş izahat verilməsi üçün 12.08.2022-ci il tarixdə yenidən Auditorlar Palatasına tərəfimdən müraciət olunmuşdur.

**Bundan başqa,**

- Auditorlar Palatasının sərbəst auditor Adıgözəl Musayevin tərtib etdiyi 06.10.2021-ci il tarixli "Audit aktı"n (səh.15) nəticə hissəsində, "Magna Trans" MMC-nin - "2010-19-cu illər üzrə yekun bölüşdürülməmiş mənfəət - 85179,41 manat";

- "Müstəqil Ekspertiza Mərkəzi" MMC-nin mütəxəssisləri - Hüseynov Şükür Rzağa oğlu və Şirinov Yasin Rza oğlunun tərtib etdikləri 19.11.2021-ci il trixli 558 saylı "mühasibatlıq rəyi"nin (səh.10) nəticə hissəsində "Magna Trans" MMC-nin - "2010-19-cu illər üzrə bölüşdürülməmiş mənfəət - 88582,40 manat", yəni, əhəmiyyətli dərəcədə fərqli rəqəmlər göstərildiyi halda, Məhkəmə Ekspertiza Mərkəzinin ekspertləri Zaur Məmmədovla, Toğrul Cəfərli özlərinin ekspert rəylərində, məhkəmə tərəfindən tədqiq edilməsi üçün ekspertlərin sərəncamına verilmiş 2010-19-cu illər üzrə "Magna Trans" MMC-nin 14 qovluqdan ibarət maliyyə-mühasibatlıq sənədlərinin, heç olmasa nümunə üçün bir dənəsini belə araşdıramadan, adını çəkmədən-yazmadan, istinad etmədən, ancaq və ancaq Auditorlar Palatasının sərbəst auditoru Musayev Adıgözəl Maqsud oğlunun tərtib etdiyi 06.10.2021-ci il tarixli "Audit aktı"nın satılmaları təsdiq edilmiş, ümumi dəyəri 2.600500 (iki milyon altı yüz min beş yüz) manat olan və "Magna Trans" MMC-yə məxsus 21 ədəd avtobusun satılmasından əldə edilmiş pul vəsaitinin banka mədaxil etmədən hesabatdan və vergidən gizlədildiyinin bu yoxlama-ekspertiza keçirmiş göstərdiyim bu "xüsusi təyinatlı mütəxəssislər" tərəfindən "aşkar edilməməsi", onların tərtib etmiş olduqları sənədlərin saxta olmasına birbaşa və təkzibolunmaz sübutdur.

"Magna Trans" MMC-nin 2010-2019-cu illər üzrə maliyyə vəziyyətinə dair, sərbəst auditor Musayev Adıgözəl Maqsud oğlunun tərtib etmiş olduğu 06.10.2021-ci il tarixli "Audit aktı"nda saxtakarlıq etməsi və sözün əsil mənasında kserosurətini öz ekspert rəylərinə köçürmələri, onların hər birinin vəzifə saxtakarlığı etmələrinə sübutdur.

Bu "xüsusi təyinatlı mütəxəssislərin" hər birinin tərtib etmiş olduğu "mütəxəssis" rəyindən isə belə NƏTİCƏYƏ GƏLİNMİŞDİR:

"Magna Trans" MMC-nin 2010-2019-cu illər üzrə bütün növ maliyyə təsərrüfatı və mülki dövriyyəsi nəticəsində əldə edilmiş (qazanılmış) xalis mənfəətdən cəmiyyətin üç iştirakçısının (təsisçisinin) payına uyğun divident aşağıda göstərildiyi kimi təşkil edir:

- gəlirləri - 10.150138,65 manat,
- xərcləri - 10.064959,24 manat,
- bölüşdürülməmiş mənfəət - 85179,41 manat,

**QEYD:** Yəni 10 il üçün hər üç təsisçinin hər birinə ödəniləcək divident - 28393,14 manat?

10 il müddətdə, ildə 365 gün 16-18 saat durmadan sərnişin daşıyan 79 ədəd avtobusun hər biri gün ərzində cəmi 29 qəpik gəlir vermişdir? Yən hər bir təsisçiyə gündə 9 qəpik? Bir toyuq yumurtasının yarı qiymətində!

**Hörmətli prokuror!**

Mən iş adamıyam, sahibkaram. Sual yaranır ki, təsisçisi olduğum, qurub-yaratdığım cəmiyyətin maliyyə-mühasibatlıq hesabat sənədlərini mənə verməmək üçün 2019-cu ildən məndən gizlənənlər, hazırda isə olduqları yer üzrə İcra şöbələri tərəfindən axtarışa elan edilənlər - direktor Mirzahid Ağayevlə həmtəsisçilər Bürhan Həmidov və Namiq Hacıyev, həmçinin tələb etdiyim sənədləri mənə təqdim etməmək üçün onların nümayəndəsi - vəkil Bəşir Camalov əsaslı və qanuni iddiama qarşı 3 il müddətdə çoxsaylı məhkəmələrdə məntiqsiz və əsassız etirazlar yazdığı halda və xüsusən də cəmiyyət yarananda, yəni 11 il ərzində 1-cə dəfə də olsun audit yoxlaması keçirmədikləri halda, necə olur ki, bu şəxslər, 42 gün ərzində - 06 oktyabr və 19 noyabr 2021-ci il tarixlərdə 2 dəfə "audit yoxlaması" sifariş edirlər və sonradan məhkəmələrin qəradadları ilə keçirilən ekspertiza və təkarar ekspertiza ekspertləri ancaq Auditorlar Palatasının sərbəst auditoru Adıgözəl Musayevin həmin "audit aktına" əsaslanırlar?

Əgər hər iki ekspertin "rəyi" təkcə audit aktına əsaslanmalıdırsa, həmin akt məhkəmədə olduğu halda, ekspertlər 2 il ərzində dəfələrlə həmin hesabat sənədlərini çoxsaylı vəsatətlərlə tələb edirdilər? Məhkəmə isə, nə üçün ekspertiza təyin edirdi? Yoxsa auditorun "Audit aktı"nı ekspert "Ekspert rəyi" ilə "notarial" qaydada təsdiq etməlidir?

Belə çıxır ki, istənilən şəxs özgənin əmlakını ələ keçirib, talan etdikdən sonra "audit aktı" sifariş edib "təmizlik kağızı" alaraq, ekspertdə "təsdiqlətdirib" cinayət məsuliyyətindən yaxasını qurtara bilər?!

**Hörmətli prokuror!**

Təsisçisi olduğum "Magna Trans" MMC-ni talayıb külli miqdarda əmlakını mənimsəməklə, dövlət büdcəsinə də milyonlarla manat məbləğdə zərər vurmuş şəxslərin məsuliyyətdən yayınmağa cəhd etmələri korrupsiyalaşmış, dayanaqlı dəstə üzvlərinin dövlətin mötəbər qurumlarında lövbər saldığının əlamətidir.

Göstərdiklərimi nəzərə alaraq, tədbir görülməsini Sizdən xahiş edirəm.

**Ağasəf İsmayılov,**
**Magna Trans" MMC-nin sahibi**

**Qeyd: Şikayətdə istinad etdiyim sənədləri izahat vermək üçün dəvət olunanda təqdim edəcəm.**

Bu gündən etibarən Azərbaycanda yeni tədris ili üçün məktəbli formalarının satışına başlanılır. Və dünən artıq satışa təqdim edilən formaların qiyməti ilə bağlı ilkin açıqlamalar verilib.



# Məktəbli çantası altında əzilən valideynlər

## Nazirin açıqlamasını eşitməzdən gələn əksər paytaxt məktəblərində yeni formaların alınması tələbləri eşidilir...

...Azərbaycanın orta təhsil müəssisələrində tətbiq ediləcək məktəbli formalarının rəngi və formasında dəyişiklik edilir. Lakin yeni dəyişikliklər əhali arasında narazılıqlara səbəb olub. Belə ki, ötən ildən alınan və istifadəyə yararlı olan formaların istifadəsi ilə bağlı artıq bir sıra orta məkltəblərdə qadağalar tətbiq edilməyə başlayıb...

Məktəbli formalarının qiyməti və satış tarixi barədə mətbuata "Bakı Tikiş Evi" (BTE) ASC-nin satış üzrə müdiri Etibar Əzimov məlumat verib. O deyib ki, uzunqol və qısaqol köynəklərin qiyməti təxminən 14 manatdır, şalvar və ətək isə 25 manata alıcılara təqdim olunacaq:

"Ümumi qiymət 39 manat olacaq. Qiymətin belə olması materialın yundan hazırlanmasından qaynaqlanır. Yunun bir metri bizə 10 dollara başa gəlir. Jaketlərə gəlincə, onları biz tikmirik. Bu səbəbdən qiymətlərdən hələ xəbərimiz yoxdur".

Xatırladaq ki, bir müddət əvvəl Baş nazir Əli Əsədov "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"ni təsdiq edib. Qərara əsasən, bundan öncəki geyim formalarından tədris ilinin sonunadək istifadə etmək mümkün olacaq.

Yəni artıq Azərbaycanın orta təhsil müəssisələrində tətbiq ediləcək məktəbli formalarının rəngi və formasında dəyişiklik edilir. Lakin yeni dəyişikliklər əhali arasında narazılıqlara səbəb olub. Belə ki, ötən ildən alınan və istifadəyə yararlı olan formaların istifadəsi ilə bağlı artıq bir sıra orta məkltəblərdə qadağalar tətbiq edilməyə başlayıb.

Valideyn Şuraları vasitəsilə yayılan qeyr-rəsmi açıqlamalarda bildirilib ki, formaların rəngi və quruluşu dəyişdiyinə görə ötənilki formalardan istifadəyə icazə verilmir.

Baxmayaraq ki, bu günlərdə Azərbaycanın elm və təhsil naziri Emin Əmirullayev açıqlamasında yumşaq tərzdə bildirmişdi ki, formaların istifadəsi ilə bağlı xüsusi məhdudiyyətlər yoxdur. Buna baxmayaraq nazirin açıqlamasını eşitməzdən gələn əksər paytaxt məktəblərində yeni formaların alınması tələbləri eşidilir.

"Hürriyyət"-ə daxil olan informasiyaya əsasən, rəsmi olaraq açıqlanan rəqəmlər hər il olduğu kimi bu il də həqiqəti əks etdirmir. Belə ki, rəsmi açıqlamada hansı bədən ölçüləri üçün qiymətlərin neçəyə olması barədə rəsmi məlumat yoxdur. Məsələn, dünyada qəbul edilmiş standartlara görə, satılan formalar ölçülərinə görə 3 kateqoriyaya bölünür. Daha dəqiq ifadə etsək məktəbli formaları 11 və ya 12 illik orta təhsil pilləsinə görə 3 hissədən ibarət dövrlərə aid edilir. Əsasən 1-5-ci siniflər, 5-9-cu siniflər və 9-12-ci siniflər üzrə dövrlərə ayrılır. Hər yaş dövrü üçün qiymətlər təbii olaraq bədən quruluşuna görə dəyişilir.









"Hürriyyət"ə daxil olan informasiyaya əsasən, "Bakı-Tikiş Evi" ASC-nin müvafiq satış nöqtələrində də bədən ölçülərinə görə qiymətlər dəyişir. Açıqlanan 39 manatlıq geyim dəsti əslində 1-5 ci siniflər üçün nəzərdə tutulur. Adətən hər il yeni tədris ilinin başlanmasına çox az bir müddət qalmış belə açıqlamalar verilir. Lakin sonradan bəlli olur ki, əslində qiymətlər yuxarı siniflər üçün daha yüksək qiymətə təklif edilir.

Bundan əlavə yalnız şalvar və qısaqol köynəklərlə bağlı açıqlanan rəqəmlər də tam deyil. Sentyabr ayının 15-dən etibarən Azərbaycanda ənənəvi icbari orta təhsil dövrü başlayır. Qısa zamanda oktyabrın ortalarından etibarən Azərbaycan ərazisində məktəblilərin qısaqol geyinməsi imkanı olmur. Bu zaman valideynlər təkrar olaraq uzunqol köynək və eyni zamanda bir qədər isti və qış fəslinə uyğun olan şalvarlar almaq məcburiyyətində qalırlar.

Bütövlükdə götürəndə isə Azərbaycanorta statistik bir ailə üçün orta məktəbə şagird yollamaq üçün nə qədər vəsait tələb edilir? Son bir il ərzində qiymətlərin kəskin bahalaşması nəticə etibarilə də məktəblilərin dərsə yollamasını da bahalaşdırıb. Həm dünyada baş verən qiymət artımı, həm də Azərbaycandakı bahalaşma gəlirləri aşağı olan orta statistik azərbaycanlı ailələrinin durumunu bir qədər də artırıb.

Əgər bir ailə üç övladını orta məktəbə yollamaq istəyirsə, nə qədər xərc tələb olunur?

"Hürriyyət" yeni bahalaşma dövrünün qiymətlərinə uyğun olaraq bazarda montorinq apardıq. Məsələn, hazırda məktəb ləvazimatları üzrə pərakəndə satış nöqtələrində illərdir ki, ənənvi olan 0.20 qəpiklik diyircəkli qələmlər yoxdur. Onların qiyməti bahalaşaraq 35-40 qəpiyə yüksəlib.

Rusiya-Ukrayna savaşı səbəbindən dünyada kağızın qiymətində də kəskin bahalaşma baş verib. Bu da kağız məhsullarının qiymətinin yüksəlməsinə gətirib çıxarıb. Belə ki, ötən il satılan standart ana dili dəftərləri 60 qəpiyə təklif edilirdisə, indi 0.90 qəpik 1 AZN həcmində bahalaşıb. Ümumiyyətlə, bütün məktəb ləvazimatlarında 40 faizə qədər bahalaşma müşahidə edilir. Ötən ilin eyni dövründə təklif olunun 5 kiloqramlıq ibtidai siniflər üçün nəzərdə tutulan məkltəbli çantaları 50 faizə qədər bahalaşıb. İstehsalçı ölkədən asılı olaraq çantaların qiyməti ötən il 20-30 manat arasında dəyişirdisə, bu ilə qiyyətlər 40-65 AZN-ə qədər yüksəlib.

**İndi isə keçək ümumi mənzərəyə:**

*- Bir uşağın ibtidai sinigə yollanması üçün, məktəbli forması tam olaraq (ayaqqabı da daxil) 120 AZN vəsait tələb olunur.*

*- Bir ibtidai sinif şagirdinin çantasını məktəb ləvazimatları (Xətkeş, dəftər, sadə və rəngli qələmlər, pozan, rəsm albomu, gündəlik, iş dəftərləri və sair) çanta ilə birlikdə 70 AZN.*

Əgər biz bura əlavə olaraq dərs ilinin açıldığı gün məktəbdə tələb edilən rüşvəti də əlavə etsək, o zaman 1 uşağın məktəbə göndərilməsi üçün 250 AZN xərc tələb edilir.

Üç uşağını orta məktəbə yollamaq istəyən orta azərbaycanlı üçün 750-800 AZN-ə başa gəlir. Nəzərə alsaq ki, bəzi əlavə dərs vəsaitləri və sair dərs ili ərəfəsində alınmalıdır və bu ilk iki aya təsadüf edir, bu da nəticə etibarilə onsuz da sosial vəziyyəti ağır olan əhali arasında bir qədər çətinliklər yaradır.

***Mövzu diqqətimizdədir. Araşdırmalarımız davam edir.***

**"Hürriyyət"**

# Prezidentin əmisi oğlunun əmlaklarını kimlər və necə ələ keçirib?

**Bakı şəhəri, Nizami küçəsi 53, mənzil 41-də yaşayan Abdullayev Böyükağa Abdulla oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına növbəti məktub daxil olub. Həmin məktubu olduğu kimi dərc edirik:**

"Bildirirəm ki, 10.08.2022-ci il tarixdə mətbuatda yayımlanan "Prezidentin əmisi oğlunun əmlaklarını ələ keçirmək istəyənlər kimlərdir" başlıqlı məqaləni oxudum. İçərimdən bir səs qopdu ki, niyə susmusan, niyə danışmırsan, bəlkə kimlərdənsə qorxursan, çəkinirsən, bəlkə oxuduğun, yazılanlar yalandır!

İçimdən gələn aşıb-daşan, cilovlanmaq belə istəməyən səsimə özümdə cavab verdim. Bildirdim ki, mən Uca Allahdan başqa heç kimdən qorxmamışam və çəkinməmişəm, heç vaxt ədalətsizliyə qarşı susmamışam. Hətta 2007-ci ildə İlham Məmmədovun sifarişi ilə mərhum Aqil Əliyevin şəriki Dəyanət Səlimov qətlə yetiriləndə də mən susmamışam, danışmışam. İlham Məmmədov Aqil Əliyevin əmlaklarını ələ keçirdiyi barədə, 2006-cı ildən (Aqil Əliyevin vəfatından sonra - müəl.) bu günə kimi danışmışam, susmamışam. Bu barədə mətbuatın arxivlərini qaldırın, mənim yazılarım dərc edilmişdir.

İlham Məmmədov məni aradan götürdə və heç cür susdura bilmədiyi üçün saxta, qondarma ittihamlarla məni 2011-ci ildə 12 il azadlıqdan məhrum etdirdi. Nəhayət, o, Aqil Əliyevin təsis etdiyi "EKO-SERVİS KO" MMC-nin (Aqil Əliyevin 50 %, mərhum Dəyanət Səlimovun 25% və mənim 25% payçısı olduğumuz) 2 milyon manat dəyərində daşınar və daşınmaz əmlakları İlqar Əliyevin adından, onun xəbəri olmadan dolayısı ilə özgəninkiləşdirərək mənimsəmişdir.

İlham Məmmədov mənim ailəmin yaşadığı bir tək yaşayış evini, alçaq, şərəfsiz, zaman-zaman hakimiyyətə xəyanət edən, insanları Prezidentə qarşı qaldıran, nankor məmurların vasitəsilə əlimizdən almış, ailə-uşaqlarımı küçələrə atdırmışdır. İlham Məmmədov onu ilk dəfə mərhum A.Əliyevin yanına gətirən "Göyçaylı Rasim" kimi tanınan və Aqil Əliyevin ən yaxın, etibarlı adamını "paralic" vurduqdan sonra onun bütün əmlaklarını əlinə keçirdi və arxasına keçdi.

Rasim müəllimin həyat yoldaşının saçlarını yolması, İlham Məmmədova "4 qızım var, hər gün saçlarını yolub səni Allaha tapşırıram, qızlarımın ahı heç vaxt yerdə qalmayacaqdır. Sən mənim balalarımın boğazını kəsmisən, atalarının əmlaklarının dalına keçmisən", - deməsinin, yəni İlham Məmmədova qarğışlar verməsinin səsi bu gün də qulağımdan getmir.



Böyükağa Abdullayev: "İşin içində olan və İlham Məmmədova qarşı amansız mübarizə aparan bir şəxs olaraq deyirəm, Riyad Əliyev düz deyir..."

"Riyad Əliyevin əvvəllər adının qalmaqallarda çəkilməsinin səbəbkarı İlham Məmmədov olmuşdur. Məhz İlham Məmmədov tərəfindən Riyad Əliyevin ətrafında təxribatlar təşkil edilmişdir. Bəlkə də Riyad Əliyevin barəsində şayiələrin yayılmasında və yazılmasında İlham Məmmədov jurnalistlərə pullar da vermişdir..."



"İlham Məmmədov fikirləşmirdi ki, kimlərisə öldürtdürməklə, kimlərinsə əmlaklarını ələ keçirməklə, kimlərinsə balalarının boğazını kəsməklə, kimlərisə zindanlara atdırmaqla, malını-mülkünü əlindən almaqla balalarına və özünə yedirdiyi haram çörək bir gün olacaq burnundan tikə-tikə gələcək"

Yasamal rayon Məhkəməsində Riyad Əliyevin deyib ki, atasının -babasının yanında olan bəzi şəxslər həmin əmlakları ələ keçirməklə varlanıblar və şirniklənərək İlham Məmmədova qoşulmuş, daha da çox əmlak ələ keçirmək istəmişlər...

İşin içində olan və İlham Məmmədova qarşı amansız mübarizə aparan bir şəxs olaraq deyirəm, Riyad Əliyev düz deyir, hələ az deyir...

Bəlkə İlham Məmmədov mənim (Böyükağa Abdullayev kimi) kimi orta məktəbi bitirib, öz savadına Xaq Təsərrüfatı İnsitutuna daxil olmuşdur?! Bəlkə hansısa unversiteti bitirmişdir?! Bəlkə mənim kimi hansısa idarələrdə, nazirliklərdə, palatalarda məsul vəzifələrdə işləmişdir?!

Əsla yox! Biləsiniz ki, İlham Məmmədov "Təzə bazar" deyilən bazarda "meçta", "sinijok" konfet satmışdır. Elə oradan da bir nəfər vəzifəli şəxs onu özünə sürücü götürmüşdür. İlham Məmmədov fikirləşirdi ki, konfet satan milyarder olmalıdır. Ancaq fikirləşmirdi ki, kimlərisə öldürtdürməklə, kimlərinsə əmlaklarını ələ keçirməklə, kimlərinsə balalarının boğazını kəsməklə, kimlərisə zindanlara atdırmaqla, malını-mülkünü əlindən almaqla balalarına və özünə yedirdiyi haram çörək bir gün olacaq burnundan tikə-tikə gələcəkdir.

Həmin gün bu gündür! İlham Məmmədovun balaları qızıldan olan teştlərinə qan qusurlar. Riyad Əliyev ona və atasının keçmiş şəriki olmuş İlham Məmmədova İlqar Əliyev tərəfindən verilmiş etibarnamələrin ləğv edilməsinin etibarsız hesab olunmasını məhkəmədən xahiş edib. Həmçinin, İlqar Əliyevin digər şəxslərə verdiyi etibarnamələr və onlar üzrə aparılmış bütün hərəkətlərin etibarsız hesab olunması barədə qətnamə qəbul edilməsini istəyib.

Mən bütün jurnalistlərdən xahiş edirəm, yazılarınızda diqqətli olasınız.

Bir yerdə qeyd edilmişdir ki, Riyad Əliyevin əvvəllər də adı bir neçə qalmaqalda çəkilmişdir. Diqqətinizə çatdırıram ki, Riyad Əliyevin əvvəllər adının qalmaqallarda çəkilməsinin səbəbkarı İlham Məmmədov olmuşdur. Məhz İlham Məmmədov tərəfindən Riyad Əliyevin ətrafında təxribatlar təşkil edilmişdir. Bəlkə də Riyad Əliyevin barəsində şayiələrin yayılmasında və yazılmasında İlham Məmmədov jurnalistlərə pullar da vermişdir.

Çünki İlham Məmmədov kimləri bilirdi ki, Riyad Əliyev savadlı, mədəni, özünü insanlara sevdirməyi bacaran və insanlar tərəfindən sevilən bir şəxsdir, Aqil Əliyev məktəbi keçmişdir. Ona görə də İlham Məmmədov var gücü ilə çalışırdı ki, Riyad Əliyevi ləkələsin, qohumlarının, əzizlərinin, xüsusən də cənab Prezidentin gözündən salsın.

Dəyərli oxucular, bir insan ki, yediyi süfrəyə arxasını çevirsin, ona çörək verən insana xəyanət etsin, onun oğluna və nəvəsinə miras qoyduğu əmlakları ələ keçirsin, bu kimi xəyanətkardan bundan artıq nə gözləyirsiniz?! Mən hesab edirəm ki, kimliyindən asılı olmayaraq xəyanət bağışlanılmır. İlham Məmmədovun da xəyanəti heç vaxt bağışlanılmamalıdır.

Sonda İlham Məmmədov kimiləri onu da bilsinlər ki, İ.-Məmmədovun repressiyasına məruz qalmağımızdan asılı olmayaraq, sonunadək Riyad Əliyev və İlqar Əliyevlə bağlı gerçəkləri deməkdən, yazmaqdan çəkinməyəcəyik".

**Hazırladı: KƏNAN**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

Bugünlərdə Ermənistanın müdafiə naziri Suren Papikyanın başçılıq etdiyi nümayəndə heyəti Rusiyaya səfər edib. Verilən məlumata görə, səfər çərçivəsində Papikyanın rusiyalı həmkarı Sergey Şoyqu və digər yüksək rütbəli rəsmilərlə görüşü planlaşdırılır. Şübhəsiz ki, bu zaman əsas müzakirə mövzusu Qarabağdakı erməni hərbi birləşmələri və Azərbaycanın Ermənistan tərəfinin təxribatlarına qarşı cavab tədbiri kimi həyata keçirdiyi "Qisas" əməliyyatı olacaq. Çünki artıq rəsmi İrəvana bir daha məlum oldu ki, Bakı atılan hər bir təxribat xarakterli addıma ən sərt şəkildə cavab verəcək və bu zaman Rusiya istəsə belə, Ermənistana yardım etməyəcək.



# "Paşinyan Azərbayc gedərsə, hakimiyy

Odur ki, ölkə başçısı İlham Əliyevin də qeyd etdiyi kimi, Qarabağda yaşayan ermənilər düzgün addım atmalıdırlar, onlar başa düşməlidirlər ki, gələcəkləri ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir: "Başqa cür mümkün deyil. Yəni, biz real həyatda yaşayırıq. Həm iqtisadi, həm coğrafi, həm nəqliyyat nöqteyi-nəzərindən Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarix nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərindən tərkib hissəsidir. Əgər Qarabağda kimsə yenə də hansısa populizm naminə, yaxud da kimdənsə qorxduğu üçün hansısa statusdan, müstəqillikdən söhbət aparırsa, bilmək lazımdır ki, o, erməni xalqının birinci düşmənidir. Çünki Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı. Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Yol ancaq budur".

Bu arada, mövzu ilə bağlı oxu-.az-a açıqlama verən rusiyalı hərbi ekspert İqor Korotçenkonun fikrincə, İrəvan münaqişə vəziyyətini beynəlmiləlləşdirməyə meyil edir. Ekspert hesab edir ki, məhz bu səbəbdən də Üçtərəfli Bəyanatda nəzərdə tutulduğu kimi, bütün qeyri-qanuni erməni silahlı birləşmələrinin Qarabağ ərazisindən tamamilə çıxarılması tələbi aktual olaraq qalır və qeyd-şərtsiz yerinə yetirilməlidir: "Nikol Paşinyanın həm ABŞ-ı, həm də Fransanı bura cəlb etmək cəhdləri tamamilə dağıdıcı təsir bağışlayır. Eyni zamanda, ABŞ Senatında bir sıra erməni lobbiçilərinin Azərbaycan əleyhinə bəyanatlar verdiyinin və Azərbaycanın ərazi bütövlüyünü şübhə altına aldığının şahidi oluruq. Buna baxmayaraq, Rusiya və Azərbaycan müttəfiqlik əməkdaşlığı haqqında məlum bəyannaməyə əsaslanaraq, bir sıra istiqamətlərdə birgə fəaliyyət göstərəcəklər. Məsələn, Üçtərəfli Bəyanat, həm də sonrakı müvafiq müqavilələrdə Paşinyanın üzərinə götürdüyü bütün öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi, siyasi cəhətdən buna məcbur edilməsi bura aiddir".



Məhəmməd Əsədullazadə: "Ermənistan hakimiyyəti üçün iki yol var: ya Azərbaycanla qarşıdurma, ya da sülh, Bakı öz növbəsində hər iki varianta hazırdır"



Elxan Şahinoğlu: "Ermənistanın müdafiə naziri Suren Papikyanın başçılıq etdiyi nümayəndə heyəti Moskvaya yalvarmağa gedib"



Zaur Məmmədov: "Qarabağdan erməni hərbi birləşmələrinin çıxarılması prosesi ya könüllü şəkildə, ya da antiterror əməliyyatının nəticəsində baş tutacaq"



Kənan Novruzov: "Əgər təxribatlar, revanşist bəyanatlar, sərsəmləmələr davam edərsə "Qisas"ın davamı gələ, növbəti anti-terror əməliyyatı başlaya bilər"

**"İrəvanın "Sürməli" ticarət mərkəzində baş vermiş partlayış və metrostansiyalarına bomba qoyulması barədə zənglərin artması revanşist qüvvələrin hakimiyyətə qarşı təxribatı ola bilər"**

Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, İrəvanın "Sürməli" ticarət mərkəzində baş vermiş partlayış və metrostansiyalarına bomba qoyulması barədə zənglərin artması revanşist qüvvələrin hakimiyyətə qarşı təxribatı ola bilər. Politoloq qeyd edib ki, bu kimi təxribatlar revanşist qüvvələrin Nikol Paşinyana mesajı kimi dəyərləndirilməlidir: "Bir müddət bundan əvvəl Ermənistanın radikal "Sasna Tsrer" partiyasının rəhbəri Jirayr Sefilyan xalqın Nikol Paşinyan əleyhinə toparlanmasına çağırış etmişdi. Məhz "Sasna Tsrer" partiyası Azərbaycanla razılaşmaya cəhd edən siyasilərə qarşı silaha əl atır. Qeyd edim ki, Jirayr Sefilyan radikal və terrorçu siyasi baxışlara malikdir. Belə ki, o, 2016-cı ildə Aprel döyüşlərindən sonra tərəfdarı ilə birlikdə Serj Sarkisyan əleyhinə silahlanaraq polis idarəsini tutmuşdu. Eyni analoji addımın Nikol Paşinyana qarşı atılması da istisna deyil". Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədrinin qənaətincə, İrəvanın "Sürməli" ticarət mərkəzində baş vermiş partlayışın miqyasına fikir verdikdə, bunun heç də təhlükəsizlik qaydalarının pozuntusundan baş verməyiyini demək mümkündür: "Düşünürəm ki, bu, Nikol Paşinyana qarşı əhalinin kütləvi etirazını təşkil etmək və bununla siyasi hərəkat formalaşdırmağa xidmət edir. Odur ki, belə bir partlayışların digər strateji obyektlərdə də baş verməsi mümkündür. Bu səbəbdən də əgər Nikol Paşinyan təhlükəsizlik tədbirlərini gücləndirməsə, o zaman hakimiyyətinə qarşı real təzyiqlər ediləcək".

Milli Cəbhə Partiyasının sədr müavini əlavə edib ki, Ermənistan hakimiyyətinin Azərbaycanla əlaqələrini normallaşdırmaq siyasətinə qarşı terror, təxribat halları davamlı olacaq: "Çünki Ermənistanda siyasi partiya və təşkilatlar, ideoloji olaraq uzun illərdir Azərbaycana qarşı düşmənçilik siyasəti aparır və hər hansı bir sülh çağırışları bu qüvvələr tərəfindən qarşısı alınır. Hesab edirəm ki, Nikol Paşinyana qarşı daxili təzyiqlər və bu kimi təxribatların baş verməsi onu Azərbaycanla sülh sazişinin bağlanmasından yayındıra bilər. Bu qüvvələrin də əsas strateji planı bundan ibarətdir. Fikrimcə, Paşinyan daxili sabotajçıları neytrallaşdırarsa, bu, onun hakimiyyətinin güclənməsinə gətirəcək. Yox, əgər daxili etirazlardan çəkinib Azərbaycanla sülhü deyil, qarşıdurmanı seçərsə, onda hakimiyyətdə qalmayacaq. Əslində, Paşinyana müxalif olan revanşistlər də onun Azərbaycanla toqquşmasında maraqlıdırlar. Odur ki, Ermənistan hakimiyyəti üçün gələcək aylarda iki yol var: ya Azərbaycanla qarşıdurma, ya da sülh. Bakı öz növbəsində hər iki varianta hazırdır. Ermənistanın isə ancaq bir çıxış yolu var ki, o da sülhdür".

**"Ermənistan rəhbərliyi**

**anlayır ki, bu gedişlə bölgədə mövqelərini itirməkdə davam edəcəklər”**

Ermənistanın müdafiə naziri Suren Papikyanın Rusiyaya səfərinə toxunan ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə erməni nümayəndə heyətinin Kremlə yalvarmağa getdiyini bildirib: ”Görünür, Moskvaya yenə yalvarmağa gediblər ki, Rusiya Azərbaycanı durdursun. Çünki özləri də anlayır ki, bu gedişlə bölgədə mövqelərini itirməkdə davam edəcəklər. İrəvanı narahat edən odur ki, Azərbaycan ordusu Qarabağda rusiyalı hərbçilərin məsuliyyət zonasında hərbi əməliyyatlar keçirir, strateji yüksəkliklərdə möhkəmlənir. Rusiya hərbçiləri ”Qisas” əməliyyatında bizə mane olmadılar. Çünki Kremlin Azərbaycanı durdurmaq

**rayonlar Azərbaycanım yurisdiksiyasına qayıdacaq”**

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov isə qeyd edib ki, Ermənistanın müdafiə nazirinin Rusiya səfəri zamanı müharibə, yoxsa sülh müzakirə ediləcək. Onun sözlərinə görə, görüşdə əsas mövzu Qarabağın dağlıq hissəsindəki erməni hərbi birləşmələri olmalıdır: ”Rusiya iyunun 30- na qədər oradan terrorçuların çıxarılacağını bildirmişdi. Avqustun sonu Laçın dəhlizinin bağlanmasından, ayaqlarımız altında olacaq yeni Laçın yolunun istifadəyə verilməsindən sonra həllini tapması olacaq məsələ - Qarabağın dağlıq hissəsinin erməni hərbi birləşmələrindən təmizlənməsi olacaq. Qarabağdan erməni hərbi



**tarixi Qərbi Zəngəzur torpaqlarına dair təbliğatı artıracaq”**

”Qisas” antiterror əməliyyatının Ermənistanda bərpa edilməyə çalışılan ”cəngavər” obrazını yenidən dağıtdığını deyən siyasi şərhçi Turan Rzayev isə qeyd edib ki, bununla da Bakı psixoloji üstünlüyün mənimənilməsinə icazə verməди: ”Prezident müsahibə zamanı vacib məqamlardan biri olan Qarabağda yaşayan ermənilərin statusu məsələsinə toxunub. Prezident bir daha bəyan etdi ki, Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə də müstəqilliyi. Bir çox hallarda bu məsələyə lazımınca diqqət verilməsə də ermənilərə xüsusi imtiyaz status vermək olduqca riskli bir addımdır. Məsələ ondadır ki, bu gün Azərbaycanda irili-xırdalı bir çox fərqli etnik xalqlar yaşayır. İndiki məqamda rəsmi Bakının ermənilərə xüsusi imtiyaz tanıması bu xalqları narazı sala bilər. Prinsip etibarilə bu gün Azərbaycanda yaşayan ləzgilər, talışlar və digər etnik xalqlar ermənilərdən daha çox bu ölkəyə xidmət edib. Ölkə başçısının bu məsələdə israrlı olması əslində uzaqgörən siyasətin təcəssümüdür. Prezident yaxşı başa düşür ki, bu gün rəsmi Bakıdan ermənilərə xüsusi imtiyazın verilməsi tələb edənlər gələcəkdə ölkə daxilində yeni etnik qarşıdurmaların zəminini hazırlayır. Buna görə də Azərbaycanın unitar bütünlüyünü pozacaq belə bir addım heç bir halda qəbul edilə bilməz”. Siyasi şərhçinin qənaətincə, nəticə etibarilə prezidentin son müsahibəsindən belə bir qənatə gəlmək olar ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsinin gecikməsi halında Azərbaycan tarixi Qərbi Zəngəzur torpaqlarına dair təbliğatı artıracaq: ”Bundan başqa, Zəngəzur dəhlizi kontekstində Azərbaycan Ermənistana doğru gedən yolların təhlükəsizlik və nəzarət imkanlarını öz əlinə almaq üçün tədbirlərini genişləndirəcək. Hətta bu istiqamətdə rəsmi İrəvanı çəkindirmək üçün hərbi addımların atılması da mümkündür”.

**Vazeh BƏHRAMOĞLU**

# canla qarşıdurmaya ətdə qalmayacaq"



Turan Rzayev: "Qisas" əməliyyatı Ermənistanda bərpa edilməyə çalışılan "cəngavər" obrazını yenidən dağıtdı, bununla da Bakı psixoloji üstünlüyün mənimənilməsinə icazə vermədi"

üçün əsası yoxdur”. Politoloq həsab edir ki, Suren Papikyanın Moskvada müzakirə edəcəyi başqa mövzu Rusiya ordusunun Ermənistan-İran sərhədində mövqelərini möhkəmləndirməsidir: ”Moskva bunu İranla sərhəddən narkotik maddələrin daşınmasının artmasıyla əlaqələndirsə də, Ermənistanda buna inanan azdır. Ermənilərə elə gəlir ki, Rusiya Zəngəzur koridorunun açılmasını sürətləndirmək istəyir. Bir sözlə, Kremlin siyasətindən şübhələnən və narazı qalan ermənilərin sayı artıb”.

**“Qarakilsə, Mehri, Gorus və sair kimi**

birləşmələrinin çıxarılması prosesi ya könüllü şəkildə, ya da antiterror əməliyyatının nəticəsində baş tutacaq. Ermənistanın baş naziri və separatçıların lideri yəqin daxili auditoriya üçün yeni ”filmin” icraçıları qismində iştirak edəcəklər. Hər bir halda, baş verənlər fonunda Ermənistanda Qərbə meyillik durmadan artacaq”.

Bakı Politoloqlar Klubunun rəhbərinin fikrincə, Ermənistanı gözləyən digər aqibət isə ilkin mərhələdə Zəngəzurla bağlı olacaq, yeni Qarakilsə, Mehri, Gorus və sair kimi rayonlar Azərbaycanım yurisdiksiyasına qayıdacaqlar: ”Məlum olduğu kimi, 1920-ci ildə Azərbaycanın razılığı olmadan bölgə Ermənistan SSR-yə verilmişdi. Kommunistlərin qanunazidd əməlləri tərəfimizdən qaldırılmalı, hüquqi sənədlər ortaya çıxarılmalıdır. Beləcə, Azərbaycan Qərbi Zəngəzura sülh şəraitində qayıtmaq istədiyini qeyd edir. Biriləri isə sərhədlər ”dəyişilməzdi” deyir. Sərhədlər dəyişməyəcək, sərhədlər tarixi yiyəsinə qayıdacaq!”

**“Ermənistan başa düşməlidir ki, üçtərəfli razılaşmalardan irəli gələn öhdəliklər nə qədər tez yerinə yetirilərsə, o cümlədən, həmin sənədə uyğun olaraq erməni terrorçular Qarabağdan nə qədər tez çıxarsa, bu, İrəvana o qədər faydalıdır”**

Ölkə başçısı İlham Əliyevin bugünlərdə ”Qisas” əməliyyatı barədə danışdığını xatırladan Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzovun sözlərinə görə, Ermənistanın hərbi-siyasi hakimiyyəti Azərbaycan prezidentinin mesajını növbəti xəbərdarlıq kimi qəbul etməlidir: ”Ermənistan başa düşməlidir ki, üçtərəfli razılaşmalardan irəli gələn öhdəliklər nə qədər tez yerinə yetirilərsə, o cümlədən, həmin sənədə uyğun olaraq erməni terrorçular Qarabağdan nə qədər tez çıxarsa, bu, İrəvana o qədər faydalıdır. ”Qisas” əməliyyatının səbəbi ermənilərin törətdiyi təxribat idi. Bu isə o deməkdir ki, Qarabağdakı terrorçular regiondakı sabitlik üçün təhdid mənbəyidir. Deməli, onlar ya üçtərəfli sazişin şərtlərinə uyğun olaraq dinc yolla, ya da növbəti anti-terror əməliyyatı nəticəsində ərazilərimizdən çıxarılmalıdırlar. Ermənilərin vaxtı onların düşündüyü qədər çox deyil. Artıq manevr imkanları da azalır. Üstəgəl, ”Qisas” əməliyyatı göstərdi ki, Rusiya, o cümlədən Qərb Azərbaycanın öz ərazisində ”təmizləmə” əməliyyatlarına qarşı çıxmır. Yəni, hər iki tərəf ərazi bütövlüyümüzü tanıyır. Bu, İrəvanın şanslarını azaldır. Prezidentin dediyi kimi, İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi. Dünya gücləri gördülər ki, Azərbaycana mane olmaqla, Ermənistanı dəstəkləməklə nəyəsə nail ola bilməzlər: rəsmi Bakı hansı yolla olursa olsun, öz məqsədinə çatacaq”.

Qardaş Türkiyənin Azərbaycanın yanında olduğunu qeyd edən siyasi ekspert bildirib ki, Ankaranın diplomatik dəstəyi üçüncü güclərin prosesə müdaxilə imkanını minimuma endirir: ”Bundan başqa, İrəvan son vaxtlar Qərb və Kreml arasında manevr etməklə hər iki tərəfi qıcıqlandırır. Azərbaycandan fərqli olaraq, Ermənistanın müstəqil xarici siyasət yeritmək imkanı yoxdur. Mütləq kiminsə dəstəyini hiss etməlidir. Beləliklə, Ermənistanın gah Qərb, gah da Rusiya tərəfə yıxılması hər iki böyük gücün narazılığına səbəb olur. Bəlkə də, onlar Ermənistanın ”burnunun qanadılmasında” maraqlıdırlar. Növbəti anti-terror əməliyyatı hər an başlaya bilər. Bu, Ermənistanın regional ritorikasından asılıdır. Əgər təxribatlar, revanşist bəyanatlar, sərsəmləmələr davam edərsə ”Qisas”ın davamı gələcək. Deyirlər ki, qozbeli qəbir düzəldər. Bu mənada yəqin, təxribatlar təkrarlanacaq. Bu isə Ermənistana baha başa gələcək. Şərtlərimizə uyğun olaraq diplomatik masa arxasına oturmaması bəs deyilmiş kimi, təxribat törətməyin, əsgərimizi şəhid etməyin sonu Azərbaycan bayrağının Xankəndidə və həlelik işğal altında digər torpaqlarımızda dalğalanmasıdır”.

**“Belə qənatə gəlmək olar ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsinin gecikməsi halında Azərbaycan**



Məğrur Bədəlsoy

# Prokurorluq şikayətləri polisə yönəldir...

## Baş Prokurorluğun 161 və 961 "qaynar xətləri" şikayətləri qəbul etmir

**Korrupsiya və rüşvətxorluq halları ilə bağlı 161 "qaynar xətti"nə şikayət etmək hər bir vətəndaşın hüququ olsa da, bu hüquqa növbətçi prokurorlar qadağa qoyub. 13 avqust 2022-ci ildə saat 20-55-də 161-ə 0774076932 nömrəsindən zəng edəndə adını deməkdən imtina edən növbətçi prokuror şikayəti qeydə almaq yerinə, öncə polisə müraciət etməyi məsləhət bilib. Bu məsləhətin qanunsuz olduğunu diqqətə çatdıranda vaxtının olmadığını bildirib.**

"Qaynar xətt"in 24 saat işlədiyini deyəndə isə şikayəti qeydə aldığını deyib. Lakin heç şikayətin dinlənilmədiyini onun diqqətinə çatdırdıqda, əvvəlki şikayətlərin qeydə alındığını vurğulayan növbətçi prokurordan adını öyrənmək mümkün olmayıb. Növbətçi prokuror özünü təqdim etməyə borclu olmadığını bildirib, heç Baş prokurora müraciət etməyin də səmərə verməyəcəyini əlavə edib.

Növbətçi prokurorun özbaşınalığından 961 çağrı mərkəzinə şikayət etmək cəhdi da uğursuz olub. 11 dəqiqəlik "növbədə birinci olaraq gözləyən" şikayətçiyə xətlərin gecə 9-20 radələrində məşğul olduğunu avtocavabverici diqqətə çatdırmaqla, yenidən bir azdan "bəxtini sınamaq" məsləhət bilinib. Növbəti zənglərin də "bəxti" bu üsulla açılmayıb.

Görəsən, Baş Prokurorluğun qaynar telefon xidməti qanunsuz məsləhət vermək üçün yaradılıb, yoxsa şikayətləri qəbul etməkdən imtina üçün? Konstitusiyanın 133-cü maddəsinə əsasən qanunların icrasına nəzarət etməyə görəvləndirilən prokurorluğun qanundan xəbəri yoxdursa, hansı qanunçuluqdan danışmaq olar? Suala cavab vermək də prokurorluğun görəvidir...

# Şəmkirdə dərəbəylik

## Düyərli kəndində örüş yerləri necə satılıb?

### "Nazim Məlikov həbs olunmamaq üçün sabiq Baş Prokuror Zakir Qaralova 500 min manat pul vermişdir..."



**Bəhlul ORUCOĞLU**
**Araşdırmaçı-jurnalist, Qarabağ Müharibəsi Veteranı**

**Şəmkir rayonunun Düyərli kəndində Bələdiyyə sədrinin qeyri-qanuni əməlləri və kənd sakini Elçin Məmmədovun sahibkar Yusif Şəmmədovun obyektinin yolunun kəsməsi haqqında "Hürriyyət" qəzetinin 21 iyun və 5 iyul 2022-ci il tarixli saylatın yazılar dərc olunmuşdur.**

Araşdırmamız nəticəsində Bələdiyyə sədri Samir İsgəndərovun qeyri-qanuni əməlləri haqqında yeni faktlar ortaya çıxmışdır. Məlumatlı şəxslərin bilgisinə görə, Düyərli Bələdiyyəsi Maliyyə şöbəsinin sabiq müdiri Nazim Məlikovla əlbir olub, Düyərli kəndinin ərazisində yerləşən örüş yerlərini, Düyərli kənd sakini Elçin Məhəmməd oğluna və kəndin 150 ha örüş yerini 200 min manata Dəllər Cəyir kənd sakini Tahir adlı şəxsə satıblar. Onların hər ikisi örüş yerlərinin təyinatını dəyişmiş, əraziyə tikinti materialları töküb, qanunsuz binalar tikirlər.

"Xolodelnik Tahir" kimin tanınan şəxs isə həmin 150 ha örüş sahəsini havadarlarının köməkliyi ilə şumlamış, taxıl əkmişdir. Halbuki, örüş yerini şumlamaq qeyri-qanunidir. Kənd sakinləri mal-qarasını (heyvanını) otarmağa yer tapmır.

Dəyərli oxucular, Nazim Məlikovun cinayət törətməsini (öz həmkəndlisini toyda bıçaqla vurmağını) hələ 2013-cü ildə mətbuatda işıqlandırmışam. Həmin dönəmdə qəzetlərdən birinin




qərb bölgəsi üzrə müxbir idim. Məlumatlı şəxsin bildirdiyinə görə, törətdiyi cinayətlərlə əlaqədar olaraq həbs olunmamaq üçün Nazim Məlikov sabiq Baş Prokuror Zakir Qaralova 500 min manat pul vermişdir. Hal-hazırda Zakir Qaralovun özü "MTN işi" ilə əlaqədar istintaqa cəlb olunub.

Nazim Məlikov Düyərli kənd Bələdiyyəsinin sədri Samir İsgəndərovun fəaliyyətinə müdaxilə edərək, onu qeyri-qanuni əməllər törətməyə təhrik edir. Bələdiyyə sədrinin qeyri-qanuni əməllər törətməsi və özbaşnalıq etməsində ona himayədarlıq edən, ona saxta sənəd verən və saxta sənədləri qəbul edən qurumların rəhbərlərinin də təqsiri az deyil. Bütün bunlarla bağlı növbəti saylarımızada daha ətraflı məlumat verəcəyik.

# "İcra başçısı deyir ki, sən inqilabçısan..."

## Məhbub Zülfüqarov: "İcra başçısı bu çikayətlərə görə Dost Mərkəzindən süpürgəçilik işindən aldığım 250 manatı 2 aydır kəsdirib"

**İmişli şəhəri, Lətif Vəliyev küçəsi 38-də yaşayan ADP İmişli Rayon Təşkilatının sədri Məhbub Əvəz oğlu Zülfüqarov tərəfindən "Hürriyyət"in redaksiyasına növbəti şikayət məktubu daxil olub. Prezident İlham Əliyevə və digər aidiyyəti qurumların rəhbərlərinə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mənim və qardaşım Zülfüqarov Mirzalının çörəklə imtahanımıza aid sualların cavabı bizə qarşı qəzəb və kindir. Amma suallara cavabları verdiyimiz şikayətləri guya "araşdıran", "təftiş edənlər" özləri açıq-aydın şəkildə göndərilən məktubda qeyd edirlər. Cavablardan aydın olur ki, qardaşımın və həyat yoldaşının əlilliyi İmişli Mərkəzi Xəstəxanasının təqsiri üzündən dayandırılıb. Xəstəxananın baş həkimi Azər Kazımov özü göndərdiyi məktubda qeyd edib. TSEK cavabı: "Dövlət Səhiyyə müəsisəsi tərəfindən rəsmiləşdirilmiş göndəriş natamam doldurulmuşdur".

Azər Kazımov Mirzalını izahata çağırır, güya qardaşım bundan imtina edir. Sanki o, Azərin işçisidir.

Xəstəxanadan göndərilən şikayəti TƏBİB və Agentlik qanuna əsasən Azər Kazımova göndərməməli idi və bu da "Vətəndaşların müraciətləri haqqında qanunun 7.13 maddəsinin pozulması deməkdir. Həmin qanunun 16-cı maddəsinə əsasən, bu qanunu pozanlar mülki, inzibati xətalar və Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Mirzalı süpürgəçilik istəyir, lakin icra başçısının qəbulunda onu məxsərəyə qoyurlar. Azər Kazımov çıxış edib başçıya deyir ki, cənab başçı, "bu məni boğaza yığıb" və s. İcra başçısı bu çikayətlərə görə Dost Mərkəzindən süpürgəçilik işindən aldığım 250 manatı 2 aydır kəsdirib. Cavabı budur ki, güya mən "inqilabçıyam", şərləmə kampaniyası davam etsə ulu babamız Zülfüqarı Ulyanovun silahdaşı sayacaqlarına inanıram.



DOST İŞ Mərkəzi isə 19.02.2020-ci il tarixli 20730005410 saylı mənə minnətdarlığ və təşəkkür məktubuna sürpriz olaraq çörək pulumu kəsib. Məktubu Firudin Cəbrayılov imzalamışdır. Mən də təşəkkür edirəm...

Qaldı Mirzalının xəstəlik sferasının kompyuterə düzgün yerləşdirilməməsinə, Mərkəzi Xəstəxananın rəhbərliyinin hərəkətsizliyinə, TSEK-in qərarının sonrakı prosedur qaydalarının pozulmasına haqq edirlər. Çünki şikayətlərimiz vaxtında araşdırılmadı. Haqq edirlər ona görə ki, Azər müəllim xəstəxanaya öz pulu ilə kamera yerləşdirib. Ondan soruşan olmadı ki, məcburi və ya şirnikləşdirici vasitələrlə əməyə cəlb etdiyin şəxslərlə müqavilələni hansı statusda imzalamısan?!

Əmək müfəttişliyi isə Mirzalıya məktub göndərir ki, xəstəxananın hüquqşunasına "öz sözlərimlə yazılan izahata imza atmısan". Hansı ki, Mirzalı imzasından dərhal imtina etmişdi və ona qarşı aldadıcı fəndlərdən istifadə edilmişdi.

44 günlük Vətən Müharibəsində bir-iki dəfə cəbhəyə ərzaq və ya dərman daşıyan xəstəxana həkimlərindən neçəsi "Müharibə İştirakçısı" statusu alıb və əlavə imtiyazlar əldə ediblər. Əlbəttə, bu tip həkimlər Mirzalının xəstəliyinə biganə qalmalı idilər və TSEK-in suallarını cavablandırmırlar. Müharibə Veteranının statusunun hansı kateqoriyalar əsasında verilməsini təftiş etsələr, sübut olunacaq.

Odur ki, xahiş edirik, bizə qarşı münasibətlərin normallaşdırılması, kin və küdurətin aradan qaldırılması, qaldırdığımız məsələlərin həll olunması, hakimiyyət və dövlətimizin mənafeyi üçün yazdığımız tənqidi fikirlərin tam, obyektiv və hərtərəfli təftiş edilməsi, "vətəndaşların müraciətləri haqqında" Qanunun müddəalarına dərhal əməl edilməsi üçün göstəşlər verəsiniz".

**Hazırladı: RƏŞAD**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# “Validyenlərim məni ağ xalatda görmək istəyirdilər”

## Aynur İsgəndərli: “Dedim, istəmirsinizsə mən özümə qəsd edim, məni bu sənətdən ayırmayın”

### “Müğənni özünün ruhuna, öz daxili aləminə uyğun mahnı seçib oxumalıdır”

Müsahibimiz AzTV-nin və Rəşid Behbudov adına Mahnı teatrının solisti, Bakı Musiqi Akademiyasının səs müəlliməsi Aynur İsgəndərlidi. Onun həyat və yaradıcılığı ilə bağlı söhbətləşdik.



***- Aynur xanım, ilk olaraq yaradıcılığınız haqda məlumat verməniz istərdik. Bu sahədə nə kimi yeniliklər var?***

- Yaradıcılığımla bağlı onu demək istəyirdim ki, hal-hazırda Rəşid Behbudov adına mahnı teatrının solistiyəm. Elə müsahibəmi də sizə burda verirəm. Mütəmadi olaraq konsertlər, tədbirlər. Bu yaxınlarda bəstəkar Səid Rüstəmova həsr olunmuş konsert gecəsi keçirildi. Mən həmin o konsertdə iki əsər ifa etdim. Daha sonra Yalçın Rzazadəyə həsr olunmuş konsert keçirildi. Bir çox sənətkarlar var ki, burada onlara həsr olunmuş gecələr olur.

Həmçinin, Müdafiə Nazirliyinin Əlahiddə Hərbi orkestrin solistiyəm. Orada da tədbirlərimiz olur. Qələbə günü ilə bağlı tədbir keçirildi. Orada çıxışlar etdim. Repertuarımda geniş vətənpərvərlik ruhlu mahnılar var. Çalışıram ki, repertuarımda Azərbaycanımıza, vətənimizə aid mahnılar daha çox yer alsın. Yeni mahnılar yazdırmağı fikirləşirəm. Bəstəkar Gülsüm Eldarovanın ”Ana hədiyyəsi” mahnısını ifa etmişəm. Bu yaxınlarda ”Tarix yazan insan” adlı bir mahnım ərsəyə gələcək, inşallah. Gülsüm Eldarovanın ”Cəngi” mahnısını, rəhmətlik Tahir Əkbərin ”El oğlu, hay ver” mahnısını, Oqtay Rəcəbovun ”Azərbaycan” mahnısını, Sərdar Fərəcovun ”Bakı” haqda mahnısını oxumuşam. Dilşad Əliyevanın ”Şəhid laylası” adlı mahnısı bu yaxınlarda işıq üzü görüb. O mahnının sözlərində şəhid analarının fəryadı, göz yaşları əks olunur. Çox təsirli mahnıdır. Çalışıram ki, repertuarımı genişləndirim. Bu günkü gündə tələb olunan nədirsə, nəyə tələbat varsa onu da edirəm. Çünki biz vətən uğurunda nə qədər şəhidlər vermişik, cavan qardaşlarımız həlak olublar. Analar gözü yaşlı qalıb. Ona görə, ən çox da qəhrəmanlarımıza aid nəğmələr oxumalıyam. Elə oxuyuram da. ”Ana hədiyyəsi” mahnım da qəhrəman, şəhid analarının balalarına aiddir. Bəxtiyar Vahabzadənin sözlərinə yazılmış mahnıdır. Onu da böyük hünərlə, sevgiylə ifa etmişəm. Bildiyiniz kimi, musiqiçi ailəsində dünyaya göz açmışam. Valideynlərimin hər ikisi musiqiçidir. Bu yaxınlarda Beynəlxalq Muğam Mərkəzində konsert keçirildi. Atam Akif İsgəndərli də ustadları ilə bərabər o konsertdə iştirak etdi. Atam həm də Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblının üzvüdürg

***- Mahnılarınız haqda böyük həvəslə danışdınız. Ən çox hansı mahnınız sizə doğmadır, ruhunuza yaxındır?***

- Mən hər mahnıya müraciət etmirəm. Əlbəttə, elə mahnıya müraciət edirəm ki, o mahnılar ürəyə xoş olsun. Bayaq qeyd etdiyim ”Ana hədiyyəsi” mahnısı mənə daha çox yaxın gəlir. O mahnımı ürəyimə yaxın hiss edirəm. Ümumiyyətlə, bütün mahnılarımın bəstəkarları gözəl şəxsiyyətlər, gözəl insanlardır. Faiq Sücəddinovla, Oqtay Rəcəbovla işləyirəm. Sözləri Baba Vəziroğlunun ”Nəğməli dünyam” adlı mahnı da ürəyimcə olan mahnılarımdandır. Özünüz bilirsiniz ki, mən geniş, çoxşaxəli ifaçıyam. Çalışıram ki, bütün janrlarda ifa edim. Həm Mədəniyyət və İncəsənət Universitetində estrada vokal solo oxumaq fakültəsini bitirmişəm, özü də Vaqif Gərayzadənin sinfini. İkinci ali təhsilim Bakı Musiqi Akademiyasının opera sinfidir, vokaldan dərs almışam. Hüseyn Əliyevin sinfini bitirmişəm. Daha sonra musiqişünaslıq üzrə magistraturanı bitirmişəm. Hal-hazırda doktoranturada elmi iş üzərində çalışıram. İnşallah, bu yaxınlarda müdafiə edəcəyəm. Mövzum görkəmli vokal ifaçısı Firəngiz Əhmədovaya aiddir. Onun haqqında yazıram. Pedaqoji fəaliyyətimi davam etdirirəm. Klassik bəstəkar mahnılarıyla yanaşı, həmçinin də klassik opera ifalarına müraciət edirəm.



***- Bildiyimizə görə, ulu babanız opera müğənnisi olub, atanızın da musiqiçi olduğunu qeyd etdiniz. Necə düşünürsünüz, sizə bu istedad genetik kodla ötürülüb?***

- Opera janrına çox həvəsim var. O da adama qanla keçir. Mənim babam Kamal İsgəndərov Opera və Balet Teatrında 40 il rejissor işləyib. Oranın rejissoru olub. Onun atası - ulu babam Əməkdar artist Qulam İsgəndərov da Opera və Balet teatrında solist olub.

İstedad mənə həm genetik kodla ötürülüb, həm də insanın istedadı, bacarığı ola bilər, onu yönləndirən insanlar varg Valideynlərim məni uşaq vaxtlarımdan bu sahəyə yönləndiriblər. Bu istedadı məndə kəşf ediblər. Həm də özümün çalışqanlığımın nəticəsində nələrsə əldə etmişəm. Çünki buna böyük həvəsim var idi. Elə istedadlı insanlar var ki, onların arxasında dayanan adamlar yoxdur. O cür insanlar çoxdur. Onlar çətinlik çəkirlər. Mənim bu tərəfdən bəxtim gətirib ki, məhz musiqiçi ailəsində doğulmuşam, valideynlərim dəstək olublar. Düz vurğuladınız ki, həm də genetik kodla ötürülüb. Yəni hər iki tərəfdən babalarım musiqiçidirlər. Atamın atası Opera və Balet Teatrında 40 il rejissor işləyib. Onun da atası Qulam İsgəndərov uzun illər Opera və Balet Teatrının solisti olmuşdu. Görkəmli sənətkarlarla - Bülbüllə, Firəngiz Əhmədova ilə, Əbülfət Əliyevlə, bir çox sənətkarlarla bir səhnəni bölüşüblər. Mən də özümü çox şanslı insan edirəm ki, onların nəticəsiyəm, onların yolunu davam etdirirəm. Ona görə də mənim opera ifaçılığına, operaya bu qədər həvəsim var. Elə buna görə də, yəni operaya həvəsim olduğu üçün opera haqda mövzunu seçmişəm.

Sizə onu da deyim ki, anamın atası Mirzağa Məmmədov da vaxtilə gözəl klarnet ifaçısı olub. Yaşlı nəslin sənətkarları onu çox gözəl tanıyırdılar. Mirzağa babam adlı-sanlı, musiqiçilər arasında sevilən, seçilən, savadlı, istedadlı musiqiçilərdən biri olub. Çox fəxr edirəm, qürur duyuram ki, onların yolunu davam etdirirəm. Anam İradə xanımın da çox gözəl səsi var. Anam oxusaydı bəlkə bugünkü gündə gözəl bir ifaçı ola bilərdi. Amma mən hal-hazırda onun yolunu davam etdirirəm.

***- Belə demək olarmı ki, sizin ilk müəlliminiz ananız olub?***

- Əlbəttə, bu sahədə ilk müəllimim anam olmuşdu. Dediyim kimi, mən gözlərimi açıb musiqiçilər ailəsində doğulmuşam. Ağlım kəsməyə başlayanda anamı oxuyan gördüm. Düzdür, indi tamam başqa bir ixtisasdadır. Görürdüm ki, anam ifa edir, atam anamı royal arxasında müşayiət edir. Uşaq vaxtından məndə belə həvəs yaranmışdı, oxuyurdum. Mütəmadi olaraq Əməkdar artist, Kukla Teatrının aktyoru rəhmətlik Ələkbər Hüseynovun tamaşalarına gedib baxırdım. Biz ona “Ələkbər əmi” deyirdik. Atamla dost idilər. Atam Ələkbər əmi ilə məni tanış elədi. Hələ mən balaca olanda Ələkbər əminin AzTV-də yayımlanan ”Hər birimiz bir çiçək” verilişinin solisti oldum. Deməli olar ki, mən balaca vaxtından bu musiqinin içində böyümüşəm. ”Hər birimiz bir çiçək” verilişindən sonra ”Şərq ulduzları” uşaq vokal ansamblının solisti oldum. Vaqif Gərayzadənin rəhbərliyi ilə. Sonra tale elə gətirdi ki, İncəsənət Universitetində Vaqif müəllim mənim müəllimim oldu. ”Şərq ulduzları”nda da konsertlər verirdik. Rəşid Behbudov adına Mahnı Teatrının özündə də, bir çox konsert zallarında mən elə kiçik yaşlarımdan ifa eləmişəm. Həmçinin də məktəb vaxtlarımda. Qohumlarım, valideynlərim, əzizlərim bütün konsertlərin tədbirlərində məni müğənni kimi görməyə artıq alışmışdılar. Amma məktəbi bitirənə qədər onlar düşünürdülər ki, yəqin mən ixtisasımı dəyişərəm. Onlar elə bilirdilər ki, mən sadəcə keçici, həvəskar kimi mahnılar oxuyuram. Sonradan gördülər ki, yox, həqiqətən də istedadım var( Gülür). Həkim kimi də məni görmək istəyirdilər. On birinci sinfi bitirmə vaxtı gəlib çatanda mənə sual verdilər ki, Aynur, sən qərarlaşdır, hara qəbul olmaq istəyirsən, bəlkə həkim olasan, oxumaq öz yerində, gözəl ifaçısan, onsuz da oxuyursan, gəlsənə həkim olasan. Nənəm də mənim həkim olub. Ona görə də çox istəyirdilər ki, məni ağ xalatda görsünlər. Dedim yox, istəmirsinizsə mən özümə qəsd edim, məni bu sənətdən ayırmayın. Heç cür mümkün olmadı, məni bu sənətdən ayırmadılar. Mən nə qərar verdimsə, razılaşdılar. Mən də sənətə gəldim. Həm də həmin vaxtlar - 2004- cü ildə “Azəri Star” müsabiqəsi keçirilirdi. “Azəri Star” müsabiqəsinə gəldim, orda da oxudum, müsabiqənin iştirakçısı oldumg

***- Elə oxucularımız, tamaşaçılarınız da sizi ən çox ”Azəri Star” müsabiqəsindən tanıyır. Amma nədənsə Aynur İsgəndərli digər həmkarları kimi fəal deyil. Bunu nə ilə əlaqələndirmək olar?***

- O biri həmkarlarımın da sənətlərini, istedadlarını bəyənirəm və dəyərləndirirəm. O biri həmkarlarıma baxanda TV-lərdə az görünə bilərəm. Mən AzTV-nin 9 ilə qədər solisti olmuşam. Mütəmadi olaraq konsertlərində, tədbirlərində çıxış etmişəm. Pedaqoji fəaliyyətimə daha çox üstünlük verdiyimə görə efirlərdən bir az kənarlaşmışam.

***- Efirlərdən kənar olmağınızın, başqa kanallarda görünməməyinizin bir səbəbi də AzTV-nin solisti olmağınız deyil?***

- Xeyr, bununla bağlı deyil. Digər kanallara da dəvət alanda böyük məmuniyyətlə gedirəm, çıxış edirəm. Bundan sonra da dəvət etsələr yenə gedərəm.

***- Səhnəyə çıxdığınız gündən peşəkar bəstəkar mahnıları oxuyursunuz. Hansısa müasir bəstəkarlarımızla işbirliyiniz varmı? Yeni hansısa əsərlər üzərində işləyirsinizmi?***

- Birinci növbədə öz üzərimdə çox çalışıram, mahnılar yazdırıram. Yeni mahnılar üzərində işləyirəm. İnşallah, gələcəkdə konsert haqqında fikirləşirəm ki, bir solo konsertim olsun. Çünki artıq konsert verməyimin vaxtıdır.

Müasir bəstəkarlarla hələ işbirliyim yoxdur. Amma istəyirəm ki, müraciət edim. Tamella adında gözəl bəstəkarımız var, istəyirəm ki, onun Azərbaycan bayrağı haqda mahnısını lentə aldırım. Çox gözəl mahnıdır. Onu, inşallah, lentə yazdıracağam. Faiq Sücəddinovun, Oqtay Rəcəbovun mahnılarını ifa edirəm. Rəhmətlik Tahir Əkbərin gözəl bir mahnısını ifa etmişdim, ”El oğlu, hay ver ”adlı mahnını. Gələcəkdə yenə planlaşdırıram ki, yeni mahnılar yazdırım və repertuarımı genişləndirim.

***- Aristotel deyirdi ki, dost adamın ikinci mənliyidir. Dostluğun tərifini siz necə verərdiniz?***

- Aristotel çox gözəl ifa edib. Mən də ona bənzər sözlə ifadə edərdim: dost mənim özümdür. Dost dediyiniz kəsə ancaq gərək özün kimi baxasan, o da sənə özü kimi baxsın. İndiki zəmanədə dost tapmaq da çox çətindir. Ona görə də elə dostlar var ki, onlar barmaqla sayılasıdır. Yəni əsl dostların qədrini bilmək lazımdır.

***- Müğənnilərin çoxu səhnəyə təzə-təzə gələndə hansısa özündən böyük sənətkarları təqlid edir. Siz necə, hansısa sənətkarı təqlid edirdinizmi?***

- Yox, təqlid etməmişəm. Amma onlara bənzəməyə çalışmışam. “Təqlid etmək” deməzdim, onlara qulaq asa-asa böyümüşəm. Sara Qədimova, Şövkət Ələkbərova, Rübabə Muradova, Rəşid Behbudov, Flora Kərimova, İlhamə Quliyeva bir çox ifaçılar var ki, mən onlara baxıb öyrənmişəm. Amma sonda Aynur kimi püxtələşmişəm. Çünki çox çalışmışam öz üzərimdə.

***- Sizcə, müğənni sənətdə öz yolunu tapmaq üçün nə etməlidir?***

- Özü kimi olmalıdır. Bilirsiniz necədir, elə insanlar, elə sənətçilər var ki, çalışırlar, zövqlərə uyğunlaşsınlar, zövqlərə uyğun mahnılar ifa etsinlər. Amma mən o fikirlə razı deyiləm. İnsan özünün ruhuna, öz daxili aləminə uyğun mahnı seçib oxumalıdır. Hansı mahnı müğənninin ürəyinə xoş gəlirsə onda həmin müğənni də özünü tapmış olur, həm də öz yolunu tanıyır. Bu, belə də olmalıdır.

***- Mənəviyyat, səbr, zəka, vardövlət, sevgi. Sadaladıqlarımın hansı sizin üçün qiymətli xəzinədir?***

- Sevgi. Sevgi olan yerdə vardövlət də olar, zəka da olar, xoşbəxtlik də olar. İlk öncə sevgiyə üstünlük verirəm. Daha sonra xoşbəxtlik, maddiyyat, həmçinin də mənəvi xoşbəxtlik.

***- Siz həm də Musiqi Akademiyasının müəlliməsisiniz, biliklərinizi tələbələrinizə aşılayırsınız. Tələbələrinizin səviyyəsindən razısınızmı?***

- Əlbəttə, razıyam. Mən özüm çalışqan ifaçıyam. Öz sənətimdə də çalışqanam. Tələbələrimə də qarşı tələbkaram. İstəyirəm onlar da özlərinə qarşı tələbkar olsunlar. Çünki mən necə tələbə vaxtında müəllimimin hər sözünü qəbul etmişəm, necə ifa etmək lazım olduğunu öyrənmişəm, notlara qədər dəqiq ifa etmişəm, tələbələrimdən də onu gözləyirəm ki, onlar da çalışqan olsunlar.

***- Allah saxlasın, bir qızınız var, sizin yolunuzu davam etdirməsini istərdiniz?***

- Həvəsi haradırsa ora da getsin. Mən heç nəyə qadağa qoyan deyiləm. Görsəm ki, həvəsi var, istedadı var, niyə də yox?! Özüm də dəstək olaram. Düzdür, çətin sahədir. Amma çətin olmasına baxmayaraq, yenə də mən olacam arxasında.

***- Dünən dünəndə qaldı, bu günü də yaşayırıq. Aynur xanımın sabahdan hansı gözləntiləri var?***

- Sabahdan böyük ümidlərim var. Gələcəklə bağlı arzularım var. Həmin o arzularımın çin olmasını diləyirəm ki, sabah bu günkü gündən daha da işıqlı olsun.

**Söhbətləşdi: Fuad Biləsuvarlı**

# Rusiyanın Azərbaycana NOTA verməsinə səbəb olan dələduzluq əməli

## Binəqədi rayon prokuroru Fuad Məmmədovun dövləti nüfuzdan salan əməlləri nə üçün və kimlər tərəfindən ört-basdır edilir?

### "Səfirlik tərəfindən verilmiş NOTA-da açıq-aşkar qeyd edilir ki, səlahiyyətli orqanlar tərəfindən Azərbaycan respublikasının Baş Prokurorluğunun göstərişlərinə əməl edilmir"

"Hürriyyət"in ötən sayında Rusiya vətəndaşının Azərbaycanda dələduzluğa məruz qaldığı haqda məlumat vermişdik. "Səfirlik işə qarışdı, Baş Prokurorluq göstəriş verdi, Fuad Məmmədov tərəfindən cinayət işi hələ də ört-basdır edilir..." sərlövhəli yazı Rusiya vətəndaşı Mamedov Vüqar Ağəli oğlunun rəsmi nümayəndəsi, etibarnamə əsasında onun hüquqlarını müdafiə edən Abdullayev Böyükağa Abdulla oğlu tərəfindən redaksiyamıza göndərilmişdi.



B.Abdullayevin "Hürriyyət"in redaksiyasına ünvanladığı növbəti şikayət məktubunu da dərc edirik:

**Hörmətli redaksiya!**

İlk öncə 9 avqust 2022-ci il tarixdə Rusiya vətəndaşı Mamedov Vüqar Ağali oğlunun Bakı şəhərində Vüsal Əkbərov adlı şəxs tərəfindən dələduzluğa məruz qalması haqda müraciətimi olduğu kimi dərc etdirdiyiniz və mövzunu diqqətdə saxladığınız üçün sizə öz minnətdarlığımı bildirirəm. Sizdən Rusiya vətəndaşı Vüqar Ağəli oğlu Mamedova qarşı Bakı şəhərində törədilmiş cinayətlə bağlı Binəqədi rayon prokuroru Fuad Məmmədovun dövləti, hakimiyyəti hörmətdən-nüfuzdan salan əməllərini Baş prokuror Kamran Əliyevin və bütün ictimayyətin diqqətinə catdırmağınızı bir daha xahiş edirik.

Rusiya vətəndaşı Mamedov Vüqar Ağali oğluna qarşı Bakı şəhərində 2021-ci ilin noyabr ayında dələduzluq hadisəsi törədilmişdir. Səfirlik işə qarışdıqdan 4 (dörd) ay sonra Baş Prokurorluq rəsmi göstəriş verir ki, Vüsal Əkbərovun şəxsiyyəti və olduğu yer müəyyənləşdirilsin, nə vaxt, hansı qiymətə, hansı şərtlər əsasında pul alması, həmin vaxt aralarında müqavilə bağlanıb-bağlanmaması, həmin alqı-satqının hansı şəxslərin iştirakı ilə baş tutması, Vüsal Əkbərovun sonradan avtomaşını hansı səbəbdən aparması, buna icazə verilib-verilməməsi və Vüqar Mamedova hansı məbləğdə ziyan vurulması xüsusatları araşdırılsın...

Baş Prokurorluğun bu göstərişi təsdiq edir ki, bu günə kimi vətəndaşa qarşı törədilmiş hadisə tamamilə araşdırılmamışdır. Yəni cinayət törətmiş Vüsal Əkbərovun şəxsiyyəti və olduğu yer müəyyənləşdirilməmişdir.

Sizlər buna inanırsınızmı? Heç Baş Prokurorluq da öz yazdığına inanmır. Necə ola bilər ki, 4 aydan artıq bir müddətdir cinayət hadisəsi törədilib, hüquq-mühafizə orqanları hadisəni törədən şəxsin şəxsiyyətini və yerini müəyyənləşdirməmişdir?!

Əgər bu həqiqətdirsə, deməк, onda Azərbaycan Respublikasında Baş Prokurorluq və Baş prokuror yoxdur! Bunu mən demirəm, Baş Prokurorluq Rusiya səfirliyinə verdiyi məlumatla özü təsdiq edir...

Onu da Azərbaycan ictimayyətinin diqqətinə çatdırıram ki, Vüsal Əkbərovun barəsində Binəqədi rayon Polis İdarəsinin İstintaq Şöbəsində AR.CM-nin 178.2.1, 178.2.4-cü maddələri ilə dələduzluq faktı ilə bağlı cinayət işinin aparıldığı eyni bir müddətdə Vüsal Əkbərov Vüqar Mamedova qarşı təkrar dələduzluq əməli - cinayət törətmişdir. Onun bu əməlinə baxmayaraq Binəqədi rayon prokuroru Vüsal Əkbərovun sonradan törətdiyi cinayəti ört-basdır etmişdir, Baş Prokurorluğun göstərişlərinə də əhəmiyyət verməmiş, daha doğrusu vecinə belə almamışdır.

Vətəndaşına qarşı törədilmiş cinayəti diqqət mərkəzində saxlayan Rusiya səfirliyi Baş Prokurorluğun verdiyi göstərişin araşdırılmamasının və üstündən 5 (beş) aydan artiq bir müddət keçdiyini, vətəndaşına qarşı törədilmiş cinayətin üstünün Binəqədi rayon prokuroru Fuad Məmmədov tərəfindən açıqcasına, nümayişkaranə ört-basdır edildiyini görərək, Baş Prokurorluğun verdiyi göstərişlərin ardından Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə NOTA göndərmişdir. Notanın tərcüməsini olduğu kimi qeyd edirəm:

"Növbəti müraciətinizlə əlaqədar bildiririk ki, səfirlik tərəfindən Azərbaycan Xarici İşlər Nazirliyinə yerli səlahiyyətli orqanlar tərəfindən Azərbaycan Respublikasının Baş Prokurorluğun göstərişlərinə əməl edilməməsi faktını göstərən NOTA (No1600-n) göndərilmişdir.

Güman edirik ki, işinizlə bağlı əlavə istintaq tədbirləri həyata keçiriləcək. Səfirliyin qeydinə cavab aldıqdan sonra sizə dərhal məlumat veriləcək".




**Hörmətli redaksiya!**

Səfirlik tərəfindən verilmiş NOTA-da açıq-aşkar qeyd edilir ki, səlahiyyətli orqanlar tərəfindən Azərbaycan respublikasının Baş Prokurorluğunun göstərişlərinə əməl edilmir.

Bu faciədir, necə ola bilər ki, Baş prokuror olsun, ancaq göstərişlərinə tabeçiliyində və nəzarətində olan orqanlar tərəfindən əməl edilməsin?!

Deməli, Baş Prokurorluğun tapşırıqlarına yerli orqanlar tərəfindən əməl edilməməsi Baş prokurorun "yoxluğu" deməkdir!

Biləsiniz ki, bu gün Baş Prokurorluğun tapşırıqlarına yerli orqanlar tərəfindən əməl edilməməsini hansısa məzlum, kasıb, biçarə azərbaycan vətəndaşı demir. Bunu Rusiya Federasiyasının Azərbaycan respublikasındakı səfiri Azərbaycan dövləti qarşısında NOTA verərək bəyan edir.

Dövlətini, dövlətçiliyi, millətini sevən bir Azərbaycan vətəndaşı olaraq məyusluq hissi keçirirəm. Ona görə ki, dünya syasi arenasında bütün göstəricilərinə görə ön yerlərdə yer tutan Azərbaycan Respublikasının Baş Prokurorluğunu aşağı orqanlar eşitmir. Zənnimizcə, Rusiya dövlətinin Azərbaycana məhz bu səbəbdən NOTA verməsi dövlətçiliyimizə böyük zərbədir.

Mən hesab edirəm ki, cənab Prezident Rusiya Federasiyasının verdiyi NOTA-ya biganə qalmayacaqdır. Baş prokuror bu məsələdən sonra ya öz fəaliyyətində, əməli hərəkətlərində dəyişikliklər edəcək, ya istefa verəcək, ya da Binəqədi rayon prokuroru Fuad Məmmədovu işdən kənarlaşdırıb, vəzifə səlahiyyətlərinin öhdəsindən gələ bilmədiyi və vəzifə səlahiyyətlərinin hüdudlarından kənara çıxdığı üçün məsuliyyətə cəlb edilməsinə göstəriş verəcəkdir.

**Hörmətli redaksiya!**

Diqqətinizə çatdırıram ki, AR XİN-nin Rusiya Federasiyasinin NOTA-sına verəcəyi cavabı, Azərbaycan respublikasının Baş Prokuroru Kamran Əliyevin Binəqədi rayon Prokuroru Fuad Məmmədovun barəsində görəcəyi qanuna müvafiq tədbirin nəticəsini və Rusiya Federasiyasının vətəndaşı Vüqar Məmmədova qarşı törədilmiş və üstü ört-basdır edilmiş cinayətin üstünün açılması ilə bağlı bütün baş verənləri diqqətinizə çatdırmağa çalışacağam".

**Hazırladı: RƏŞAD**

***Redaksiya: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# "İmam Hüseynin din uğrunda özünü qurban verməsi faktı doğru deyil"

## Rafiq Əliyev: "O Kufəyə ona görə gəlirdi ki, orada vali olsun, yəni mübarizə hakimiyyət mübarizəsi idi, din yox"

"Hürriyyət" qəzeti "İRŞAD" İslam Araşdırmaları Mərkəzinin direktoru, fəlsəfə elmləri doktoru, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Rafiq Əliyevin APA-ya müsahibəsini təqdim edir.



***- Rafiq müəllim, bu gün Azərbaycanda dini situasiyayla bağlı fikirlərinizi bilmək istərdik.***

- Mənə elə gəlir ki, hazırda stabillik var. Yəni din və dövlət münasibətlərini götürsək, hələlik ciddi münaqşə təhlükəsi görmürəm. Eyni zamanda, dinlərarası münasibət də normaldır. Amma bugünkü nisbi sabitlik o demək deyil ki, dini müstəvidə problem yoxdur. Bu günlərdə ölkəmizdə ciddi surətdə şiə tərəfdarlarının çoxalması, şiə liderlərinin geniş vüsət alması məsələsi var. Hansı ki bu liderlər adamları çox rahatlıqla ələ ala bilir. İnandırıcı və savadlı formada aparılan moizələrə mən də baxmışam. O qədər axıcı nitqlə və inandırıcı şəkildə danışırlar ki, inanmamaq çətin olur. Hətta həssas mövzulara toxunduqda birlikdə ürəkdən ağlayırlar. Bu bizdə təzə formalaşıb. 10-15 il qabaq belə deyildi, bu adamlar yox idi.

***- Deyirsiniz ki, bu təbliğat məsələləri son dövrlərdə çoxalmaqdadır. Buna səbəb nədir?***

- Bu şeylər İranda əzəldən var. Görünür, onun təsiridir. İranda mən görmüşəm, bu cür məclislərdə dövlət səviyyəli adamlar da hönkürürlər. Elə ağlayırlar ki, elə bil ən yaxın adamları ölüb, ona yas tuturlar.

***- Sizin qənaətinizcə, belə bir şey doğrudurmu?***

- Bu, anormal bir şeydir. Ümumiyyətlə, İslamda şiəlik əvvəllər olmayıb. İmam Hüseyn müsibəti isə çox-çox sonralar ortaya çıxıb. Şiəliyi İmam Əlinin övladları ilə bağlayırlar. Yenə də qeyd edim ki, yas tutmaq məsələsi, ifrat formada ağlayıb-sızlamaq olduqca anormal haldır.

***- Bu özlüyündə hər hansısa təhlükədən xəbər verirmi?***

- Bilirsiniz, ideyanı ancaq ideya ilə önləmək olar. İdeyanı silah və zor gücü ilə öldürmək, sındırmaq olmaz. Həmin ideyanın qarşısına başqa bir ideya çıxarmaqla çərçivəyə salmaq mümkün olur. Bu gün üçün isə reallıq odur ki, Azərbaycanda ideya var - Azərbaycanizm. Amma bu, ideologiya ola bilməyib. İslam dini isə Allaha inamın ideologiyasıdır. Və İslam kitablarında şiəlik və Məhərrəmlik haqqında o qədər də məlumat yoxdur. Amma bu gün Həcc ziyarətinə gedənlərin sayı iki-üç milyon arasında olur. Bəs bu rəqəm Kərbəla ziyarətində bilirsiniz, nə qədərdir? 30 milyon. Bu, İraq əhalisindən iki dəfə çox deməkdir. Bu ziyarət elə təşkil edilir ki, həmin ziyarətdə sənin üçün hər şərait qurulur. Bu da insanları ora çəkmək üçün bir həmlədir. Həcc ziyarətində belə olmur, müəyyən xərclər tələb olunur.

Bir daha qeyd edim ki, ideyanı ancaq ideya ilə önləmək olar. Və yaxud da həmin ideyanı daha yaxşı formada çatdırmaqla da nəyəsə nail olmaq mümkündür. Bax, məsələn, mən o moizələrə qulaq asıram. İmam Hüseynin din uğrunda özünü qurban verməsi faktı doğru deyil. Bütün imamların hamısı öldürülüb, bu doğrudur. Amma amal din idimi? Deyildi.

İmam Rza Kərbəlada şahın vəziri olub. Çünki camaatın ona inamı var idi, imam Rza bu təklifi qəbul elədi və onun vəzirliyi də faydalı oldu. Amma şah sonradan gördü ki, İmam Rzanın hörməti daha da artmaqdadır və bir gün şah olma təhlükəsi yaranır. Buna görə də onu zəhərləyib öldürtdü. Bax, burada sual yaranır. İmam Rza niyə ədalətsiz şahın yanında idi? Niyə onun hökmlərini camaata diqtə eləməklə məşğul idi? Görürsünüz, bu sualı verən yoxdur. Məntiqlə İmam Rza xalqın, ədalətin və haqsız duruma düşənlərin yanında olmalı deyildimi?

Yaxud İmam Hüseyni Məkkədə heç cür qəbul etmirdilər, vəzifəsi də yox idi. Kufədə vali yox idi və Kufə camaatı onu özlərinə vali təyin etdi. O da öz ətrafına adam toplayıb gəldi Kufəyə. Bundan sonra isə Məkkəlilər ondan tamamilə imtina etdilər və qayıdacağı təqdirdə onu öldürəcəklərini dedilər. İmam Hüseyn Kufə yolunda olarkən ona xəbər göndərdilər ki, gəlmə, biz səni istəmirik. İmam Hüseyn nə irəli gedə bilirdi, nə də geri. Ya təslim olmalı idi, ya da öldürülməli idi - Zeyd tərəfindən. O Kufəyə ona görə gəlirdi ki, orada vali olsun. Yəni mübarizə hakimiyyət mübarizəsi idi, din yox. Din özü də hakimiyyətə xidmət edir axı. Din, cəmiyyət və hakimiyyət - bu bir üçlükdür. Bunu açıq formada dedikdə ki, İmam Hüseyn özünü hakimiyyətə qurban verib, insanlar qəbul etmək istəmir.

Bir-iki gün qabaq moizələrdən birinə qulaq asırdım. Danışırdı ki, o 72 nəfərdən başqa 3 nəfərlik bir ailə də həmin döyüşlərdə olub. Ata yaxşı oxatan olub deyə, İmam Hüseyndən xahiş edib ki, onu da qəbul eləsin. Döyüşdə əvvəl sağ qolunu kəsiblər, sonra sol qolunu, ən sonda isə başını kəsiblər. Başı gəlib İmam Hüseynin ayağının yanına düşüb və dilə gəlib ki, mən düşmən yanında qalmadım, gəldim sənin ayağına. Və insanlar bu nağıla inanırlar, dəsmal götürüb ağlayırlar. Buna inanmaq bilirsiniz, nə deməkdir? Bu ağlasığmazdır.

Bu cür şeylər televiziyalarda, saytlarda, sosial şəbəkələrdə bu formada təqdim edilməlidir ki, insanlarımız, heç olmasa, müqayisə apara bilsinlər. Götür-qoy edə bilsinlər. Amma şərait yaradılmır, əksinə, bu cür moizə müəlliflərinə efirlərdə geniş meydan verilir. Bu da istər-istəməz insanlarımızda belə bir təəssürat yaradır ki, elə belə də olmalıdır və bu siyasətə, bir növ, dövlət də dəstək verir. Və o cür adamlar bir dəfə efirdə çıxış etdikdə ətrafına kifayət qədər adam yığa bilir, çünki onların çox gözəl oratorluq bacarığı var. Ədalət naminə, o adamların yanında əks arqument gətirən biri də olmalıdır, hər iki tərəfə meydan eyni formada verilməlidir. Eyni zamanda, bu gün üçün Dövlət Komitəsinin özünün moizə oxuyanları olmalıdır.

***- Rafiq müəllim, orta statistik bir Azərbaycanlı ailəsini götürək. Onun üçün şiəlik və onun təbliği, Kərbəla ziyarətinin təbliği necə aparılır? Təsir hansı formada edilir?***

- Kənar təsirlərdir, bu, aydın məsələdir. İran bizim qonşumuzdur. Bütün istiqamətlərdə gediş-gəlişimiz var, qız alıb, qız vermək kimi qohumluq münasibətlərimiz var və İran şiə dövlətidir. Bunun qarşısını almaq çox çətindir və bu sıx münasibət və təsir getdikcə geniş vüsət alır, çoxalır, dərin kök salır. Bilirsiniz, adi bir moizə ilə bu qədər adamı nəyə inandırmaq, ağlatmaq olursa, düşünün, onları hansı tərəfə istəsən, yönəldə bilərsən.

***- Bayaq dediniz ki, Dövlət Komitəsinin özünün moizə oxuyanları olmalıdır. Onlar harada yetişməlidir?***

- Bunun üçün bizdə İlahiyyat İnstitutu var. Elə orada.

***- Bizdə din xadimi statusu almaq üçün tələbələrin başqa ölkələrə getməsi lazımdır. Olmazmı ki, bu status elə bizdə verilsin?***

- 1992-ci ildən bəri Bakı Dövlət Universitetində Konstitusiyaya zidd olaraq, İlahiyyat fakültəsi vardı. Din dövlətdən ayrıdır, ona görə də bizim universitetlərdə belə bir fakültə ola bilməzdi. Mən dəfələrlə buna qarşı çıxmışam. Orada 5000-ə yaxın tələbə təhsil almışdı, amma nəticə etibarilə dövlət onların heç birini işlə təmin edə bilmədi. Qaldılar ortada.

Dediyiniz şeyə gəldikdə isə, mən həmişə demişəm ki, mümkün olmayan heç nə yoxdur. Sadəcə, bu işdə maraqlı olmaq, addımlar atmaq lazımdır. İlahiyyat İnstitutunu bitirən hansı tələbəni moizə oxuyanlardan biri kimi görürük? Heç birini. Demək, naqislik onlara verilən təhsildədir.

***- Dediyiniz o 5000 tələbəni dövlət işlə təmin etmirdisə, niyə yetişdirirdi?***

- Mən də onu deyirəm axı. Bizdə o potensial yoxdur. Ona görə də o fakültə olmamalıdır. Din mənəviyyatla bağlıdır, insanların əxlaqının formalaşmasında ciddi rol oynayır, amma dövlətdən tamamilə ayrıdır. Bax, bu kitabda (masanın üzərindəki kitabı göstərir) bütün bunlar göstərilib. Dövlət, Din və Cəmiyyət üçbucağı olduqca həssas məsələdir. Bu kitab sırf o təhlilə görə Amerikada qızıl medala layiq görülüb.

***- Müsahibələrinizin birində bizdə din xadimlərinin yetişdirilməsi məsələsini o qədər də qəbul etmədiyinizi demisiniz.***

- Azərbaycan hakimiyyəti dini dövlətdən ayrı hesab edir, bu birmənalıdır. Biz yetişdirəcəyimiz o adamları normal proqramla dövlətin dindən ayrı olduğunu aşılayaraq yetişdirə biləyəciksə, yetişdirək. Nurçular var idi, məsələn. Onlar kimi din xadimi yetişdirə bilən varmı? Yoxdur. Onların təhsili yüksək səviyyədə idi, sadəcə, onların ən böyük mənfisi hakimiyyətə gəlmək məsələsi idi.

***- Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birlikdə iş prinsipi, sizcə, normaldımı?***

- Deyil. Bu gün QMİ-nin, demək olar ki, səlahiyyəti qalmayıb. Amma istənilən halda, bu iki qurumun müştərək fəaliyyəti mütləq formada olmalıdır. Vaxtilə qəzetlərdə Məhərrəmlik vaxtı İran Mədəniyyət Mərkəzinin moizələri çap edilirdi və ciddi rezonans doğururdu. Bəs biz niyə yazmırdıq? Niyə təhlillər aparmırdıq? Bunun üçün dövlətin dəstəyi və şəraiti də lazımdır. Mən demirəm ki, bir-birlərini tənqid etsinlər, yox. Sadəcə, bir-birlərinin fikirlərini, ən azından, müzakirə etsinlər.

***- Sizin Dini Komitədə sədr olduğunuz dövrdə Azərbaycana donor təşkilatlarının axını var idi. Məsələn, Əbu-Bəkr məscidini Küveytin hansısa xeyriyyə cəmiyyəti tikmişdi. Buna nə ehtiyac var idi?***

- Ehtiyac yox idi. O məscidə yer verən Nərimanov Rayon İcra Hakimiyyəti, icazə verən isə Bakı Şəhər İcra hakimiyyəti idi. Əbu-Bəkr məscidi həmin xeyriyyə cəmiyyətinin mülkiyyətində idi, amma biz sonradan Əbu-Bəkr məscidi də daxil olmaq, 10 məscidi dövlətin mülkiyyətinə çevirdik. Hətta ona qədər dövlət nümayəndələrini o məscidə buraxmırdılar. Təsəvvür edirsiniz? Onların gəlişinin yalnız bir məqsədi var idi: Azərbaycan neft ölkəsi idi, o vaxt neft müqaviləsi dünyada səsküy yaratmışdı, Azərbaycan o ölkələr üçün maraqlı idi. Ona görə də dövlətin içinə girirdilər.

***- Rafiq müəllim, bir az da Sələfilərdən danışaq. Ümumiyyətlə, sələfilər və yaxud da vəhabilər deyilən bir qol haqqında insanlarımız nəyi bilməlidir?***

- 19-cu əsrdə meydana gəlmiş bir qoldur. O dövrdə İslam dini məhvə doğru gedirdi. Və həmin qarışıq dövrdə Məhəmməd Abdul Vahab öz variantını irəli sürdü, bu da vəhabilik idi. Səudiyyə Ərəbistanda olan iri qəbilələrdən biri - Səud qəbiləsi bu qolu öz ideologiyaları kimi qəbul etdi, nəticədə Səudiyyə Ərəbistanı dövləti yarandı. Bu dövlətin ideologiyası isə məhz Sələfilərin ideologiyası idi. Vəhabilər dedikdə, birinci növbədə onu qeyd eləmək lazımdır ki, vəhabilərin İslam dininin geri qaytarılmasında ciddi rolu olub. Eyni zamanda, vəhabilərin iki ciddi xətası var: birincisi, "dində məcburiyyət yoxdur" prinsipinə əməl etmirdilər, insanları zorla dinə cəlb edirdilər. İkincisi, dini qəbul etməyən kəslərin mülkiyyətini əllərindən alırdılar, hətta öldürürdülər.

Amma biz vahabilərlə əlaqələrimizi normallaşdırdıq, Əbu-Bəkr məscidini sənədləşdirib dövlət mülkiyyətinə çevrildi. Və məscid ətrafındakı natəmizliklər də təmizləndi. Yekunda məscid daxilində təbliğatın da mahiyyəti dəyişdi. Münasibətlər normallaşdı.

***- Rafiq müəllim, sizin sədrliyiniz dövründə din və dövlət məsələlərində, ümumiyyətlə təhlükə doğuran xarici təsirlərə qarşı nə kimi işlər görülmüşdü?***

- 2001-2006-cı illərdə xarici təşkilatlar məscid tikə bilmədi, biz onun qarşısını aldıq. Eyni zamanda, bayaq da dediyim kimi, bundan sonra bu tikinti prosesi icra hakimiyyəti orqanlarına həvalə olundu. Amma istənilən halda, bunu dini komitə etmədi. İkincisi, tikilən və dövlətin mülkiyyəti hesab edilməyən məscidlər sənədləşdirilib dövlətin mülkiyyətinə çevrildi. Bu, çox ciddi bir iş idi. Bundan sonra o məscidlər icra hakimiyyətinin tabeliyinə keçmiş sayılırdı.

***- Xarici təsirlər demişkən, Londonda baş verən hadisələr haqqında danışaq. Sırf Məhərrəmlik ayında, Aşuraya bir neçə gün qalmış baş verən bu hadisənin məqsədi nə idi?***

- Bu, bir mesaj idi. Və onların mesaj verdiyi adamlar, məsələn, Hacı Şahin və digərləri o hadisələri pisləyirlər, onlara qarşı çıxdılar. Hansı ki o mesaj birbaşa bu adamlara verilmişdi. Burada digər maraqlı məsələ odur ki, bu adamlar onların əksinə getdilər deyə, insanların gözündə daha da yüksəldilər, daha da hörmətləri qalxdı. Yeni istədikləri, əslində, oldu deyə bilərik. Bu şeylər təsadüfən baş vermir. O təşkilat ciddi formada iş görüb, hazırlıq görüb və istəyinə də nail olub.

***- İnsanlara din necə izah edilməlidir ki, bu cür yanlış istiqamətlərə yönəlməsinlər?***

- Din mənəviyyat məsələlərini həll edir. İnsan birinci növbədə buna başa düşməlidir. Amma bu gün din birbaşa siyasətə təsir edir, təkcə mənəviyyatla kifayətlənmir.

Mən dəfələrlə təklif eləmişəm ki, dinin tarixi ən həssas məsələdir. İnsanlar dinlərin tarixini öyrənməlidir. Çünki demək olar ki, bu barədə heç nə bilmirlər.

Vaxtilə Heydər Əliyevin tapşırığı ilə bütün dinlərin tarixini əks etdirən kitab hazırlamışdıq. İslam bir az geniş verilsə də, bütün dinlər orada əhatə edilirdi. Sırf məktəblərdə tədris olunacaq səviyyədə bir kitab idi. Amma icazə verilmədi. Çünki kitab mənim adımdan yayımlanmışdı, müəyyən adamların adı yox idi. Onunla da o söhbət batdı.

# Qadın dünyası

## Qadınlar haqqında yalnız kişilər...

(Birinci məqalə)

***Qadınlar onları mühasirəyə alıb qəlblərini ovlamağı sevirlər. Onların üzərində daima kiminsə sahib olmağını istəyirlər.***

**Maksimilian Şöll**
**aktyor və rejissor**

**Taleyi qadına bəxt açanda onu da yazmış ki, xarakteri ziddiyyətlərlə zəngindir: müdrikliklə axmaqlıq, sadəliklə biclik, ədalətlə yalan qovuşur - şıltaqlıqla məkrliyi xatırlatmırıq. Bütün lirik və sərt paradokslara baxmayaraq O, istedadından, bacarığından lazımi məqamlarda istifadə etmir. Qadının borcu qısa kişi ömrünü kövrək məhəbbətilə sağlam ehtirasında bəkləməkdir. Heyif ki, Qərb qadınlarının kişilərlə bərabər hüquqlu olmaq uğrunda mübarizədə qələbəsi Şərq qadınlarımızı da “xəstələndirdi”! Unudulmasın ki, bəşəriyyətin fiziki - bioloji və mənəvi - sosial baxımından yaşadan yeganə - qadının insan nəslinin dünyaya gəlməsi kişinin iqtidarından asılıdır. Və bu gün İlahiyyat elminin pıçıldadığı Tanrı qovuşmasından utanıb çəkinməyə lüzum qalmır. Lakin kişini məhz bu qabiliyyət üçün ideallaşdırmaq da lazım gəlmir. Unudulmasın ki, peşə - sənət stressləri ən çox qadınları tapır. Doktor Soli Bensabat araşdırmasında maraqlı nəticələr çıxarmışdır: “Qadınlarda stress onların ikiqat yükü ilə bağlıdır, işdə və evdə də məişət qayğılarını düşünür, narahatçılıq keçirirlər” - yazmışdır. Həqiqətdir, kişilər işdən sonra sərbəst olurlar. Qadınlara isə vaxt azlıq edir, nəvazişə ehtiyac duyurlar...**

Soli Bensabat o məsələni də xatırladır ki, qadında “rəhbərlik stressi” onu fərqləndirir: rəhbərdirsə, nəyin qabaqcadan görməlidirsə, qərar çıxarmalıdırsa... stressdən əziyyət çəkməli olur.

Ümumiyyətlə, XX-XXI əsrlər qadınlar üzərində spesifik həmlələrini yeni variantlarda təzələmişdir ki, bu, onların həm rəhbərlik iddiaları, həm də tabeçilik sıxıntıları ilə bağlıdır. Birinci haqlı olaraq islamçılıqda məqbul sayılmamış bəzi qadağalarla səciyyələnmişdir. İkinci isə əsasən ehtiyac ucbatından yaranmışdır. Görünür, əsrlərlə hər bir əsrin mövcudluğu çağdaş ruhlu, ovqatlı kişilərin qadınların davranışında





Allahverdi Eminov

(əxlaqında) bir sıra iddialar irəli sürmək psixologiyasını planlaşdırmışdır. Görkəmli şəxsiyyətlər qadın barədə müdrik kəlamlar söyləmək məcburiyyətində qalmışlar.

Tibbi müşahidələr təsdiqləyir ki, tabeçilik əhvalı mənəvi - sosial prizmalarda qadın reaksiyalarının boğulmasına gətirib çıxarır və nəticədə orqanizmdə kortikol və bir qədər də az katokolanın hasilə gəlməsinə şərait yaradır. Bu isə qadınların psixoloji təzyiqini gücləndirir, onlarda nisbətən az cinsi hormonlar yaranır, qadın hormonlarının pozuntularına imkan verir.

Qadının iddiaları hələ ki, hesaba alınmamışdır və bu addımı məqbul sayıram, fikrimcə bu, onlar üçün sirr deyil, amma kişilər əvvəlcədən sual hazırlamışlar: “Qadın nə olmaq istəyir?” Biz vaxtilə sualın cavabı ilə maraqlandıq, müxtəlif cavablar da aldıq, həqiqətlər etiraf edilmişdirsə fərdi, məxsusi iddialar yox deyildi. Belə cavabları xatırlatmağa ehtiyac görmürəm, hər bir kişinin bəxtinə düşmüşdür. Ötən əsrlərdə yaşayıb yaratmış şairlərin, filosofların, rəssamların və başqa sənət adamlarının ömür payında baş vermiş, dərin izlər buraxmışdır, nə istədiklərini səmimi boyun alanlar təbəssümlər ilə xatırlamışlar. Mən bu sıradan tənqidçi V.Q.Belinskinin şair A.S.Puşkinə aid məqalələrinin birində yazdığını oxucuların nəzərinə çatdırıram: “Təbiətin nadir gözəllik bəxş etdiyi bəzi qadınlar var ki, onların çox düzgün cizgilərə malik siması - quruluşu ilə insanı heyrətdə buraxır, hərəkətləri isə şuxluqdan məhrum olur. Belə qadınlar özlərinə xas gözqamaşdırıcı gözəllikləri ilə insanı heyrətləndirə bilmirlər. Lakin onlar kimsənin ürəyini qeyri-adi bir həyəcanla çırpındıra bilməzlər! Onların gözəlliyi sevgi doğurmur, sevgi doğurmayan gözəlliksə həyatdan, poeziyadan məhrumdur”. Bu fikirləri yalnız Belinski kimi həyatsevər, Puşkin tək çılğın şair söylər. Budur, şairin qadın qarşısında etirafı:

***Mən səni sevirdim,***
***bəlkə məhəbbət***
***Könlümün evində***
***sönməmiş hələ,***
***Qoy eşqim verməsin***
***sizə əziyyət,***
***Kədərli olmayın***
***necə an belə.***
***Ümidsiz və sakit***
***sizi sevirdim,***
***Məni incidirdi,***
***qısqanclıq, təlaş.***
***Eşqimi, hissimi,***
***ah sizə verdim,***
***Mənim tək sevəydi***
***başqası da kaş.***

Bu misralar qadınların hisslərini tərpətməyə bilərmi? Hansı duyğularla yaşarsa yalnız onların özlərinin payıdır.

Gözəlliyini qəlbində yaşadan, qiymətləndirən qadınlara kişilərin qiyməti adətən, beledir: “Gözəldirsə, demək, sevgiyə layiqdir” - bununla onlar rəğbət avansı alırlar!

Aşkar fiziki baxımlı, ləyaqət saçan qadınlar ünsiyyətcil təsiri oyadırlar kişilərdə. Zahiri cazibədarlıq bəxş edən qadınlar şəhvət cəhətdən daha hərarətli olurlar, şam işığına can atırlar. Əksinə düşünək: Zahirən gözəllikdən məhrum (bu fikrin tamamilə əleyhinəyəm, bütün qadınlar qəşəngdir, araya “intriqa” salan bəzi kişilərdir) təvazökarlıq ucbatından belə bir rəylə razılaşmışlar. Sadəlövhlük parametrilə kifayətlənmişlər. Cazibədar, xoşagələn, gözəlliyinə güvənən qadınlarda, intimliliyə daha liberal baxışlar vardır, bütövlükdə onlar seksual təcrübə qazanmışlar. Belə özünəməxsusluq xüsusi - fərdi, ruhi - ovqatlı təşkil olunmaya əsaslanır da, sadəcə, bir qayda olaraq onlarda sosial vərdişlərini məşq etdirmək imkanı yetərlidir.

Gözəlliyə maliklik, cazibədarlıq möhkəm xarakterli qadının cizgilərindən xəbər verir, əgər zövqündə yanılmırsa. Ötən əsrdə Lionlu psixoloq Jül Nurriske belə qadın tipinin portretini cəsarətlə “imzalamışdır” - yazmışdır ki, geniş, açıq alınlıdır, dodaqları bir-birinə sıxılmışdır. Baxışları qətiyyətlidir, əzələləri və əlləri gərgin vəziyyətdədir. İstəyəndə öz hisslərini idarə etməyi bacarırlar...

Qadın anadangəlmə gözəl olar, lakin təbiətin bəxş etdiyi bu gözəlliyi qoruyub saxlamaq necə, lazımdırmı? Gözəllikdən - bu misilsiz can nemətindən hansı qadın imtina edər? Mən müəlliflik səlahiyyətimdən istifadəyə güvənməklə, qadınlardan yazanlara iradımı bildirmək istərdim: nə üçün qadın möcüzəsinin cazibəsində, sehrində kişilər həyatı boyu fırlanırlar? Bilərəkdən qadını “tək”, kişini “cəm” halında işlətdim. Bu qrammatik yanaşmanın özü qadına sirli münasibətlərin harmoniyası deyilmi?

Ən kədərli, kövrək, özündə olmayan anlarında, dəqiqələrində (daha vaxt limiti qurtarır) qadının gözəlliyindən süzülən baxışlara möhtac olan kişilər, Maksimilian Şöllə razılaşırsızmı?!

... Bir ovqatımda özümə sual verdim ki, min illərdir qadından yazırlar, danışırlar, birinə inanırsan, birinə yox. Məgər əsrlərin həmyaşıdı Sokrat, Platon, Aristotel qadına qarşı laqeyd qalıblar? Bəlkə çəkiniblər? Deməli, nəsə müəmmalı bir şey olmuş ki, hələ də açmaqda acizik. Amma Sokrat yarızarafat, yarıciddi demişdir ki, Sizə yaxşı arvad qismət olsa xoşbəxtsiz, pisi qismətdirsə filosof olacaqsız.

Yəni dövrün yazanları da öz fikirlərini ortaya atıblar. Yazıçı A.Hüssenin bir qənaəti məni düşündürdü: “Dünya yaranandan bəri paltar dəyişir, qadın dəyişmir”. Görəsən, Hüsse hiyləgərcəsinə qadının geyim - paltar azarkeşi olmasına işarə vurmur ki? Yoxsa, yazar qadında yüksək iradə, yetərli cazibəlik əsrlərin onu sayması ideyasını vurğulamışdır? Yenə düşünməli oldum, oxucuları saysız suallar qarşısında qoydum, bəs, dürüst yox - inandırıcı cavabı kimdən gözləyim? Bu dəfə alman filosofu F.Nitşeyə üz tutdum: - Qadınlar barədə yalnız kişilərlə danışmaq olar...

Fədakarlığınız nəticəsiz qalmayıb. Məsləkinizlə, mübarizə əzminiz və şəhadətinizlə yandırdığınız milli azadlıq məşəli bu gün sizin yolunuzu davam etdirən milyonlarla türk ərənlərinin ürəyində alovlanaraq azadlıq yoluna nur saçmaqla türkün milli azadlığını addım-addım yaxınlaşdırır.

# Bəşər övladının hürriyyət və istiqlalı

## Ənuşirəvan İbrahimi qanunları və Firidun İbrahimi Anayasası!



Firidun Qəni oğlu İbrahimi



Ənuşirəvan Qəni oğlu İbrahimi

### Obyektiv mülkiyyət, bölgü və əmək haqqının Ənuşirəvan İbrahimi qanunları

*(Əvvəli ötən saylarımızda)*

Cəmiyyətin iqtisadi-ictimai sisteminin ədalətsizliyindən yaranaraq bu günə cəmiyyətdə törədilən cinayətlərin ən azı 95% -ni təşkil edən cinayətlərin baş vermə səbəblərini aradan qaldırmağa qadir olan dövlət sistemi qurmaq mümkündür. Cəmiyyətə təklif etdiyiniz Anayasa məhz buna tam şərait yaratmağa qadir dövlət sisteminin Firidun İbrahimi Anayasasıdır. Bu Anayasa reallaşdırıldığı halda bəşər tarixində ilk dəfə olaraq dövlət aparatı kiminsə və ya kimlərinsə şəxsi və ya qrup maraqları xatirinə, subyektiv iradəsi əsasında, kimliyindən asılı olmayaraq vətəndaşa qarşı tətbiq edilən insanların ədalətsiz istismara məruz qoyulmasını qanuniləşdirən zor vasitəsi olmaq xüsusiyyətini həmişəlik itirir.

Bu Anayasanı biz irqindən, milliyyətindən və sairə xüsusiyyətlərindən asılı olmayaraq bəşər cəmiyyətinə bu günkü vəziyyətdən çıxış yolu olmaqla bərabər, bəşəriyyətin iqtisadi-ictimai inkişafının yeni pilləsi olaraq təqdim və təklif edirik.

K. Marks yazır ki, "Artıq iş o yerə çatıb ki, söhbət bu və ya digər teoremin düz olub olmadığından deyil, bunun kapital üçün əlverişli və ya əlverişsiz, sərfəli ya sərfəsiz olması, polisin düşüncəsinə uyğun olub olmamasından gedir. Obyektiv tədqiqat öz yerini muzdlu yazarların döyüşünə veir, obyektiv elmi araşdırmalar əvvəlcədən yarınmağa hesablanmış yalanlarla dəyişdirilir. (K. Marks, Kapital II səh.17).

Bu gün bütün ölkələrdə hakimiyyətə gələnlərin məqsədi heç də cəmiyyətə millətin rifah və inkişafı yolunu göstərmək deyil, onları hakimiyyətə gətirə biləcək yalanları millətə sırıyaraq onu öz məqsədlərinə tabe etməkdir. Əslində hakimiyyət başına gələnlərin mütləq çoxluğu cəmiyyətin rifaha çatmaq yolunu heç bilmir də. Bu səbəbdən biz millətin rifah və inkişafını təmin edə biləcək, 1945-1946 cı illərdə Cənubi Azərbaycan Demokratik Respublikasının Baş Prokuroru, türk milli azadlıq mübarizəsinin şəhidi Firidun Qəni oğlu İbrahiminin şərəfinə adlandırdığımız Firidun İbrahimi Anayasasının 139 maddəsinin 689 bəndinin həcminin çoxluğunu nəzərə alaraq onun bəndlərinin bir neçəsini də şərh etmədən oxucuya təqdim edirik.

1. Müasir dövlətdə dövlət mülkiyyət sahibi ola bilməz. Yəni dövlət mülkiyyətinin mövcudluğu qadağandır.

2. Hakimiyyət vətəndaşların və ümumilikdə xalqın iqtisadi-ictimai azadlığının önəmli bir hissəsi üzərində sahiblik hüququ olduğuna görə o dövlətə, hansısa şəxsə, qrupa məxsus ola bilməz. Hakimiyyət ancaq Anayasaya və ondan irəli gələn qanunlara məxsusdur.

3. Şəhidlərin anası, atası, həyat yoldaşı və uşaqları ödənişsiz təhsil və qanunda nəzərdə tutulan təminatlarla təchiz edilir.

4. Cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum edilmiş şəxslərin birinci dərəcəli qohumları, ictimai təşkilatların nümayəndələri, kütləvi informaisya vasitələri əməkdaşları onların səs yazısı istisna olmaqla istənilən vaxta aid görüntülərinə baxmaq hüququ və şəraiti təmin edilməlidir.

5. Bu Anayasa zor və digər siyasi texnologiyalar vasitəsilə qanunsuz olaraq hakimiyyəti ələ alanlara qarşı xalqın silahlı üsyan hüququnu tanıyır.

6. Heç bir vəzifəli şəxs bütövlükdə xalqı təmsil edə bilməz. Heç kəsə toxunulmazlıq statusu verilə bilməz.

7. Ölkədə iqtisadi, texniki, ictimai və s. proseslərin idarə edilməsi üçün yaradılmış hüquqi şəxslər, o cümlədən dövlət qurumları, milli və fərdi xüsusi mülkiyyətə aid olan hüquqi şəxslər, ictimai təşkilatlar hər hansı bir mülkiyyət üzərində sahiblik hüququna malik ola bilməzlər. Hüquqi şəxslər onun istifadəsinə və sərəncamına verilmiş milli mülkiyyət, əmlak və ya fərdi xüsusi mülkiyyət, əmlak üzərində mülkiyyətçinin verildiyi təyinat üzrə və ona verilən hüquqlar çərçivəsində ancaq bu mülkiyyətdən istifadə və sərəncam hüququna malik ola bilərlər.

> Ölkədə iqtisadi, texniki, ictimai və s. proseslərin idarə edilməsi üçün yaradılmış hüquqi şəxslər, o cümlədən dövlət qurumları, milli və fərdi xüsusi mülkiyyətə aid olan hüquqi şəxslər, ictimai təşkilatlar hər hansı bir mülkiyyət üzərində sahiblik hüququna malik ola bilməzlər. Hüquqi şəxslər onun istifadəsinə və sərəncamına verilmiş milli mülkiyyət, əmlak və ya fərdi xüsusi mülkiyyət, əmlak üzərində mülkiyyətçinin verildiyi təyinat üzrə və ona verilən hüquqlar çərçivəsində ancaq bu mülkiyyətdən istifadə və sərəncam hüququna malik ola bilərlər...

8. Məhkəmə istisna olmaqla heç bir dövlət qurumunun heç bir yüksək vəzifəli məmuru özündən aşağı vəzifə tutan şəxslərə, kimliyindən asılı olmayaraq heç bir vətəndaşa nəyə görəsə icazə vermək və ya qadağa qoymaq hüququ yoxdur. Bütün icazə və qadağalar həmin məsələlər üzrə qəbul edilmiş qanunlarda əks olunmalıdır.

9. Heç bir dövlət qurumu və ya onun səlahiyyətli vəzifə sahibi əmr, sərəncam, təlimat və s. bu qəbildən icrası məcbur olan yazılı və şifahi göstərişlər vermək hüququna malik deyil. Çünki bütün bunlar qanunun özünün, icra mexanizminin səlahiyyəti və tərkib hissəsidir.

10. Bütün dövlət qurumlarının istisna edilmədən bütün əməkdaşları Dövlət İmtahan Komissiyası və peşə üzrə təşkil etdiyi imtahanların nəticəsi olaraq vəzifəsini əldə etməlidir.

11. Ümumi və fərdi bağışlama hüququ dövlət orqanları və ya dövlət məmuruna yox, ancaq zərərçəkmişə, o həyatda olmadıqda isə onun varislərinə məxsusdur.

12. Bütün vətəndaşlar, dövlət orqanları, xüsusi mülkiyyət əsaslı hüquqi şəxslər, yerli idarəetmə orqanları, ictimai təşkilatlar bütün məsələlər üzrə qanunvericilik təşəbbüsü qüququna malikdir.

13. Dövlət valideynlərinin imkanı olmayan hər bir vətəndaşı və ölkədə daimi yaşayan vətəndaşlığı olmayan şəxsi anadan olduğu gündən qanunda nəzərdə tutulan norma üzrə yaşayış yeri (mənzil sahəsi ya torpaq) və ona minimum istehlak səbəti həcmində gəlir gətirən kapital ilə təmin edir.

14. Dövlət valideynlərinin imkanı olmayan hər bir vətəndaşı və ölkədə daimi yaşayan vətəndaşlığı olmayan şəxsi yetkinlik yaşına çatan gündən sahibkarlıqla məşğul olmaq üçün qanunla müəyyən edilmiş miqdarda ilkin (start) kapital ilə qeyd-şərtsiz, əvəzi ödənilmədən təmin edir.

15. Bu və ya digər səbəbdən müflis olmuş vətəndaşları təkrar sahibkarlığa cəlb etmək məqsədilə dövlət onları aşağı tarif dərəcəsi ilə verilən kreditlə təmin edir.

16. Cəmiyyət üçün zəruri olan sahələrə kapital qoyan sahibkarların vəsaiti yetərli olmadığı halllarda dövlət onları əlavə kapital qoyuluşuna aşağı tarif dərəcəsi ilə kreditlə təmin edir.

17. Vətəndaşın minimum yaşayış sahəsi və onun mövcudluğunu təmin edən kapitalın heç bir dövlət qurumu, vəzifəli şəxs, məhkəmə qərarı, heç bir əsasla onun əlindən ala və ya müsadirə edə bilməz.

18. İş yerinin milli mülkiyyətə və ya fərdi xüsusi mülkiyyətə aid olmasından asılı olmayaraq qadınlar qanunla müəyyən edilmiş vaxtdan analıq məzuniyyətinə çıxdığı gündən dünyaya gətirdiyi uşağın 3 (üç) yaşı tamam olanadək əmək haqqı 100% ödənilməklə və əmək haqqının səviyyəsi saxlanılmaqla üç ildən sonra işinə qayıtmaq hüququ ilə analıq məzuniyyəti hüququ var.

19. On dörd yaşı tamam olmamış uşağı olan qadınlar 8 saatlıq iş günü üçün verilən əmək haqqı 100% ödənilməklə 6 (altı) saatlıq iş günü hüququna malikdir.

20. 3 (üç) və daha artıq 14 (on dörd) yaşı tamam olmamış uşağı olan qadınlar 8 (səkkiz) saatlıq iş günü üçün ödənilən əmək haqqı 100% ödənilməklə 4 (dörd) saatlıq iş günü hüququna malikdir. İşəmuzd işlərdə də əmək haqqı ödənilən istehsal və xidmət normaları da bu nisbətdə olmalıdır.

21. Qanunla müəyyən edilmiş ağır və insan səhhəti üçün zərərli olan sahələrdə və işlərdə, gecə növbətlərində aktiv müharibə şəraiti istisna olmaqla qadınların və həddi-buluğa çatmamış oğlanların əməyindən istifadə etmək qadağandır.

22. Bütün dövlət qurumlarının əməkdaşları (xidmətçi heyət istisna olmaqla) imtahan verməzdən əvvəl digər sənədlərlə bərabər özünün, həyat yoldaşının, onunla birlikdə yaşayan həddi-buluğa çatmış övladlarının daşınan və daşınmaz mülkiyyəti, əmlakı barədə qanunda nəzərdə tutulan qaydada deklarasiya təqdim etməlidir.

23. Orta məktəbin yuxarı siniflərində oğlanlara və qizlara müharibə və hərbi vəziyyət şəraitində özünümüdafiə üçün zəruri olan hərbi texnikadan istifadə üzrə 2 (iki) illik kurs keçilməlidir.

24. Bütün kütləvi informasiya vasitələri hər gün qanunla müəyyən edilən həcmdə və vaxt ərzində ictimai əsaslarla hüquqşünasların Anayasasının maddələri və qanunların elmi və populyar şəkildə vətəndaşlara izah və şərh edilməsini təmin etməlidir.

25. Vətəndaşların ictimai birlik yaratması və onun fəaliyyətinə xitam verilməsi, habelə nümayiş, mitinq yürüş, piket və s. dinc etiraz tədbiri keçirmək üçün yerli özünüdarə orqanına bu barədə qanunla nəzərdə tutulan vaxtda, qanunla müəyyən edilən məlumatları yazılı və ya elektron qaydada göndərməsi kifayətdir.

26. Məhkəmənin vətəndaşı azadlıqdan məhrum edilməsi haqqında qərarı qanuni qüvvəyə minənədək saxlanılan və ya müvvəqəti həbs edilən şəxslərin müvəqqəti saxlanc yerləri təcrid edilmiş, daim ictimai nəzarət altında olan mehmanxana tipli qorunan yer olmalıdır.

27. Polisin, xüsusi xidmət orqanları əməkdaşlarının ictimai asayişi pozan və hər hansı bir səbəbdən saxladığı şəxsi dərhal gətirib onu dəqiq saxlanma səbəbi, yeri, vaxtı göstərilməklə müvəqqəti saxlanc yerinə təhvil verməlidir.

28. Müstəntiq təqsirləndirilən şəxsə təqdim etdiyi ittihamı məhkəmədə müdafiə etməlidir.

29. Təqsirləndirilən şəxsin etirafı şahid ifadələri cinayətin törədilməsinin sübutu və məhkəmə qərarının əsası ola bilməz.

30. Təqsirləndirilən şəxsin, zərərçəkmişin iş üzrə məhkəməyə təqdim etdikləri sənədlərin surəti və şifahi faktların siyahısı hakimin imzası və möhürü ilə təsdiq edilib onlara və onların vəkilinə verilməlidir.

31. Əvf etmə hüququ ancaq zərərçəkmişə, o həyatda olmadıqda isə onun varislərinə məxsusdur. Məhkəmə isə bu aktı qanuna uyğun rəsmiləşdirən dövlət orqanıdır.

32. Prokuror dövlət ittihamçısı deyil, o Anayasa və qanunların düzgün tətbiqi və icrasına nəzarət edən dövlət nəzarətçisidir.

**Şapur QASIMİ**